# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 58 (3296) Çərşənbə axşamı / 23-24 iyun 2020-ci il Qiymәti 40 qəpik


## Əməliyyat

■ **Bakıda narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər saxlanılıb.** Binəqədi rayon Polis İdarəsinin 5-ci polis bölməsi əməkdaşları daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakinləri, 1994-cü il təvəllüdlü Amil Orucov və 1995-ci il təvəllüdlü Əlihüseyn Hüseynovu saxlayıb. A. Orucovdan 1 kiloqram 9 qram heroin, Ə. Hüseynovdan isə 10 qram heroin və 183 qram metanfetamin aşkar edilərək götürülüb. Binəqədi rayon Polis İdarəsinin cinayət-axtarış şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində isə Bakı şəhər sakini, 1993-cü il təvəllüdlü Əmirbəy Ağayevdən 0,924 qram heroin, çantasından isə 1,674 qram heroin, 2,711 qram metanfetamin, 1983-cü il təvəllüdlü Şirxan Məmmədovdan isə 3,392 qram heroin aşkar edilərək götürülüb.

## Hadisə

■ **İyunun 21-də saat 22 radələrində Gəncə şəhər sakini 1968-ci il təvəllüdlü Fuad Qurbanovun ölməsi barədə məlumat daxil olub.** Gəncə Şəhər Prokurorluğundan hafta.az-a bildiriblər ki, dərhal prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, izahatlar alınıb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib. İlkin araşdırmalarla müəyyən edilib ki, Fuad Qurbanov yaşadığı evdə təmir-tikinti işləri apararkən beton plitənin üzərinə düşməsi nəticəsində ağır dərəcəli bədən xəsarətləri alıb, aldığı xəsarətlərdən yerləşdirildiyi xəstəxanada ölüb. Hazırda faktla bağlı şəhər prokurorluğunda araşdırmalar davam etdirilir.

## Qətl

■ **İyunun 21-də saat 22 radələrində Suraxanı rayonu ərazisində 1968-ci il təvəllüdlü Teyyub Ramazanovun üzərində bıçaq xəsarətləri olan meyitinin yaşadığı evdə aşkar olunması barədə daxil olan məlumat əsasında dərhal prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib.** Suraxanı Rayon Prokurorluğundan hafta.az-a bildiriblər ki, faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adamöldürmə) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib. İstintaqla hadisənin zərərçəkmişin qardaşı 1976-cı il təvəllüdlü Teymur Ramazanov tərəfindən şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı törədilməsinə əsaslı şübhələr müəyyən edilib. T.Ramazanov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Qəza

■ **Daxili İşlər Nazirliyi Tovuzda baş verən yol qəzası ilə bağlı məlumat yayıb.** Nazirliyin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, iyunun 19-da saat 19 radələrində Tovuz rayonunun Cəlilli kəndi ərazisində Ağstafa rayon sakini R.Nağıyev idarə etdiyi "Mercedes" markalı avtomobillə yolu keçən kənd sakini 9 yaşlı Həsən Quliyevi vurub. Nəticədə xəstəxanaya yerləşdirilmiş azyaşlı iyunun 20-də orada ölüb. Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

# Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiq qalır




***"Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətraf yeddi rayon daxil olmaqla Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, habelə bir milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib". XİN-dən hafta.az-a verilən məlumata görə, bunu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Əlaqə Qrupunun Cammu və Kəşmir üzrə virtual görüşündə çıxışı zamanı deyib.***

**Bəyanat**

O bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilərindəki çox sayda Azərbaycan tarixi və islam irsinə aid əsərlər də daxil olmaqla çoxsaylı tarixi, mədəniyyət və dini abidələr vəhşicəsinə məhv edilib.

"Azərbaycan hökuməti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurası və İƏT-in müvafiq qətnamələri əsasında sülh yolu ilə həllinə sadiq qalsa da, Azərbaycan ərazi bütövlüyü və suverenliyini tam əsasda bərpa etmək üçün lazım olan bütün vasitələrdən istifadə etmək qanuni haqqını qoruyub saxlayır", - deyə nazir vurğulayıb. "Azərbaycan beynəlxalq birliyin məsul üzvü olaraq Cammu və Kəşmir məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, habelə beynəlxalq humanitar hüquqa tam hörmətlə, sülh yolu ilə həllini dəstəkləyir". Elmar Məmmədyarov deyib.

O bildirib ki, nəticədə məsələnin davamlı həllinə səbəb olacaq səyləri davam etdirməyə aşkar bir ehtiyac var. "Cammu və Kəşmir məsələsi ilə əlaqəli bütün həll edilməmiş məsələlərin sülh yolu ilə həlli, daha geniş Cənubi Asiya bölgəsində sülh və təhlükəsizliyin təmin edilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Cammu və Kəşmir üzrə İƏT Əlaqə Qrupunun üzvü olaraq, Azərbaycan bu formatı İƏT üzvü olan dövlətlərin müvafiq İƏT qərarlarından irəli gələn öhdəliklərinin yerinə yetirilməsi vəziyyətini nəzərdən keçirmək üçün vacib və faydalı bir mexanizm hesab edir. Azərbaycan yaxın vaxtlarda bölgədə sülhün və əmin-amanlığın bərqərar olacağına inamla Təmas Qrupunun işində fəal iştirakını davam etdirəcək", - deyə nazir qeyd edib.

"COVID-19 pandemiyasının çətin şərtlərində beynəlxalq birlik bundan sonra təcavüz və işğalın nəticələrini daha da möhkəmləndirmək məqsədilə beynəlxalq münasibətlərin hazırkı vəziyyətindən istifadə etmək istəyənlərin səylərinə qarşı durmaqda xüsusi hazır olmalıdır". Elmar Məmmədyarov İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Əlaqə Qrupunun Cammu və Kəşmir üzrə virtual görüşündə çıxışı zamanı deyib. "Bu baxımdan İƏT çərçivəsində birlik və birgə fəaliyyət həmrəyliyimizin möhkəmləndirilməsində çox vacibdir və bununla da pandemiya nəticəsində vurulan ciddi zərərin azaldılmasında və beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında birgə gücümüzü artırır", - deyə E. Məmmədyarov vurğulayıb.




# Türkiyə Qarabağ məsələsində həmişə Azərbaycanın yanında olub və olacaq

**Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, eləcə də ona bitişik yeddi rayonu, ümumilikdə torpaqlarının iyirmi faizi Ermənistanın işğalı altındadır. Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunmazlığı çərçivəsində həll olunmalıdır və bunun vaxtı çatıb. Türkiyə bunu istəyir. Bu fikirləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Antalyada keçirdiyi mətbuat konfransında səsləndirib.**

Dağlıq Qarabağ problemi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrini və digər beynəlxalq təşkilatların qərarlarını xatırladan nazir deyib: "Bu sənədlərdən aydın şəkildə görünür ki, həmin torpaqlar Azərbaycan əraziləridir. Təəssüf ki, ATƏT-in Minsk qrupu münaqişənin həllində üzərinə düşən vəzifəni lazımi şəkildə yerinə yetirmədi. Bir neçə ay öncə onları Ankaraya dəvət edərək problemin diplomatik yolla həlli üçün səylərini artırmalarını istədik. Biz həm Rusiya, həm də ABŞ ilə danışıqlarımızda bu məsələni daim gündəmə gətiririk. Artıq bu problemin həll olunmasının vaxtı çatıb". Mövlud Çavuşoğlu Azərbaycanın konstruktiv mövqe nümayiş etdirməsinə baxmayaraq, Ermənistanın buna qarşılıq vermədiyini vurğulayıb. "Halbuki beynəlxalq təşkilatların qərarları var, bütün dünya səy göstərir. Digər tərəfdən, Qarabağda qondarma seçkilər keçirdilər. Biz beynəlxalq təşkilatlardan, Minsk qrupundan bu seçkiləri tanımamağı və bunu açıq şəkildə söyləmələrini tələb etdik. Onlar bunu etdilər. Beynəlxalq ictimaiyyət bu seçkiləri tanımadığını söylədi. Ermənistan bu cür təxribatlara əl atmaq əvəzinə, münaqişənin sülh yolu ilə həllinə səy göstərməlidir. Biz hər bir məsələdə olduğu kimi, işğal olunmuş torpaqlar və Qarabağ məsələsində də hər vasitə ilə qardaş Azərbaycanın yanındayıq, bundan sonra da yanında olacağıq. Azərbaycan bu problemin necə həll olunmasını istəyirsə, biz də o şəkildə Azərbaycanın yanında olmağa davam edəcəyik", - deyə Türkiyə XİN rəhbəri bildirib.

GÜNDƏM

# "Taliban" hərəkatı əsirlikdə olan 14 hərbçini və polisi azad edib



**"Taliban" hərəkatı Əfqanıstan güc strukturlarının əsirlikdə olan 14 əməkdaşını azad edib. Bu barədə "Taliban" hərəkatının Qətərdə yerləşən siyasi ofisinin rəsmi nümayəndəsi Məhəmməd Suhail Şahin məlumat verib.**

"Kabil administrasiyasına aid 14 əsgər və polisdən ibarət daha bir qrup həbsdən azad edilib", - deyə Məhəmməd Suhail Şahin özünün "Twitter" səhifəsində yazıb. Onun sözlərinə görə, əsirlər Əfqanıstanın şərqindəki Nanqarhar və Nuristan əyalətlərində yerləşən həbsxanalarda saxlanılırdı.

Qeyd edək ki, fevral ayının 29-da Doha şəhərində "Taliban" hərəkatı və ABŞ arasında sülh sazişi imzalanıb. Sazişə əsasən, "Taliban" hərəkatı və Əfqanıstandakı digər tərəflər arasında danışıqlar və atəşkəs rejimi başlanmalıdır. Danışıqlardan öncə etimadın möhkəmlənməsi üzrə tədbirlər qismində hərəkatın həbsdə olan 5 min üzvü və Əfqanıstan ordusunun taliblərin əsirliyində saxlanılan minə yaxın əməkdaşı azad edilməli idi.

Hazırda Əfqanıstan hakimiyyəti "Taliban" hərəkatının 3 minə yaxın tərəfdarını, taliblər isə hökumət qüvvələrinin 500-dən çox əməkdaşını əsirlikdən azad edib. Əfqanıstan Milli Təhlükəsizlik Şurası bundan sonra əsirlərin azad olunması prosesinin ölkədə zorakılığın azaldılması və danışıqlardakı irəliləyişlə paralel aparılacağını deyib.

GÜNÜN SİTATI

"

*Paşinyan ənənəvi erməni xisləti ilə yalan deyib, iştirakçıları o yalana inandırmaq və bu yalan üzərindəki "hücum"la, özünün, təmsil etdiyi ölkənin işğalçılıq siyasətini ikinci plana keçirmək istəyində idi. Öz diktator, hərbi cani sələflərindən guya "demokrat"lığı ilə fərqlənən Paşinyan öz replikası, çıxışı və Azərbaycan Prezidentindən aldığı sərrast cavablarla miskin duruma düşməkdən qurtula bilmədi*

"



**Qənirə Paşayeva,**
Milli Məclisin Mədəniyyət komitəsinin sədri




# FHN Xəzər dənizinin sahili boyu patrul xidməti aparır

**Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə respublikanın bir sıra yaşayış məntəqələrində 2020-ci il 21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək xüsusi karantin rejimi sərtləşdirilib.** Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, sərtləşdirilmiş xüsusi karantin rejimi müddətində vətəndaşların qaydalara əməl etməsi ilə əlaqədar çimərliklərdən istifadənin qarşısının alınması məqsədilə FHN-nin müvafiq qüvvələri Daxili İşlər Nazirliyi ilə birgə fəaliyyətdə Xəzər dənizinin Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu sahili boyu həm quruda, həm də qayıqlarla dənizdə, eləcə də Lənkəran, Masallı və Cəlilabad rayonlarında patrul xidməti aparır.

"Vətəndaşları bir daha ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin bütün qərar və tövsiyələrinə ciddi riayət etməyə çağırırıq", - deyə FHN-nin məlumatında bildirilib.

Günün fotosu...



Mən havada uçuram...

"HƏFTƏ İÇİ"ndən



## Şəmkirdə texnika çatışmazlığı

Onların istismar müddəti başa çatıb. Yerin içinə girən kimi qırılırlar

bax səh. 7




## Bu il ən isti yay ola bilər

Mütəxəssislərin proqnozlarına görə, bu ilin ilk beş ayında Yer səthindəki temperatur istiliyinə görə ikinci ən yüksək göstəriciyə sahib olub

bax səh. 6

# Sərəncam



**Prezident İlham Əliyev iyunun 22-də "Biləsuvar rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.** Biləsuvar rayonunun Çinarlı kəndində əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.21-ci yarımbəndində göstərilmiş məbləğin 455 min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

# Milli Məclisin plenar iclasları iyulun 5-dək təxirə salınır



**Milli Məclisin fəaliyyəti sərtləşdirilmiş karantin rejiminə uyğunlaşdırılır. Bununla əlaqədar Milli Məclisin plenar iclaslarının iyulun 5-dək keçirilməməsi nəzərdə tutulur.**

Artıq bununla bağlı Milli Məclisin komitə sədrlərinə və komitə sədrlərinin müavinlərinə məlumat verilib.

Bununla belə, zərurət yaranacağı təqdirdə iclas keçirilə bilər. Milli Məclisin Aparatına da iyulun 5-dək məhdud sayda işçi cəlb etmək tapşırılıb. Qeyd edək ki, iyunun 21-dən iyulun 5-dək Bakıda və daha 7 şəhər və rayonda xüsusi karantin rejiminin sərtləşdirilməsi tətbiq olunub.

# Müdafiə naziri Moskvada keçiriləcək hərbi parada dəvət olunub



**Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqunun dəvəti ilə Moskvada keçiriləcək hərbi paradda iştirak edəcək.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, general-polkovnik Z.Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 24-də Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunmuş hərbi parada qonaq qismində qatılacaq. Nümayəndə heyəti iyunun 23-də Moskvaya yola düşəcək.

Paradda ölkəmizi Azərbaycan Ordusunun 75 hərbi qulluqçusundan ibarət parad heyəti təmsil edəcək.

# Daha 478 nəfər COVID-19-a yoluxub, 7 nəfər vəfat edib



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 478 yeni yoluxma faktı qeydə alınıb, 369 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.** Nazirlər Kabineti yanında Operativ Qərargahdan hafta.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 13 207 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 7168 nəfər müalicə olunaraq sağalıb, 161 nəfər vəfat edib, 5878 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4345, ötən müddət ərzində isə ümumilikdə 426 394 test aparılıb.

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Prezident yerüstü piyada keçidinin açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Bakının Xətai rayonu, Neapol küçəsində yeni yerüstü piyada keçidinin açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov piyada keçidinin texniki göstəriciləri barədə Prezident İlham Əliyevə məlumat verdi.*





Bildirildi ki, yüksək zövq, tam fərqli görkəm, müasir texnologiyalar əsasında inşa olunan bu keçid paytaxtda yeni piyada keçidlərinin tikintisi ilə bağlı aparılan kompleks işlərin tərkib hissəsidir.

Yeni inşa olunan piyada keçidi Heydər Əliyev Parkının yaxınlığında yerləşir. 2000-ci ildə salınan və həmin il açılışında ulu öndər Heydər Əliyevin şəxsən iştirak etdiyi bu park rayon sakinlərinin ən sevimli istirahət məkanıdır.

Qeyd edək ki, bu keçidin inşasına qədər ərazidə piyadalar üçün çox böyük çətinliklər olurdu. Onlar xüsusən günün pik saatlarında yolu keçməkdə problemlə üzləşirdilər. Bundan başqa, piyadaların bu ərazidə yolu keçməsi nəqliyyat vasitələrinin hərəkətinə də mane olurdu. Beləliklə, ərazidə piyadalar təhlükə, avtomobillər isə tıxacla qarşılaşırdılar.

Yeni keçidin inşası bütün bu problemləri həll edib. Burada fiziki məhdudiyyətli insanların rahatlığını təmin etmək üçün 2 müasir lift quraşdırılıb. Bu qurğunun inşası qısa müddətə, eyni zamanda, yüksək keyfiyyətlə aparılıb. Yeni keçid müasir görünüşü ilə fərqlənir.



Prezident İlham Əliyevə, həmçinin məlumat verildi ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrliyində, Bakı Beynəlxalq Avtovağzal Kompleksi ilə metronun "Avtovağzal" stansiyası arasındakı ərazidə əsas yolun hərəkət hissəsi genişləndirərək zolaqların sayı 4-ə çatdırılıb. Bakı şəhərinin şimal girişində xüsusən günün pik saatlarında yaşanan tıxacların aradan qaldırılması məqsədilə icra edilən bu layihə çərçivəsində "20 Yanvar" dairəsində yolun hərəkət hissəsi 10 metrə qədər, magistral yol Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısından keçən hissədə isə hər iki istiqamət üzrə 1 hərəkət zolağı enində genişləndirilib.

Qeyd edək ki, avtomobil yollarında piyadaların təhlükəsizliyini təmin etmək məqsədilə hərəkətin intensiv olduğu ərazilərdə yeraltı və yerüstü piyada keçidlərinin inşasına xüsusi diqqət yetirilir. Son dövrlərdə paytaxtda bu istiqamətdə görülən işlərə nəzər salsaq, bunun şahidi olarıq. Belə ki, 2018-2019-cu illərdə Bakıda və şəhərətrafı yollarda, həmçinin magistrallarda 7 yerüstü və yeraltı piyada keçidi istifadəyə verilib.

2020-ci ilin əvvəlindən indiyədək paytaxtda Heydər Əliyev prospekti ilə Zəki Məmmədov küçəsinin kəsişməsində yeraltı piyada keçidi, Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində və Neapol küçəsində yerüstü piyada keçidləri inşa olunub. Hazırda Azadlıq prospekti, Qala-Pirallahı, Mərdəkan-Buzovna, Bakı-Sumqayıt yollarında və digər ərazilərdə piyada keçidlərinin inşası yekunlaşmaq üzrədir. Bundan başqa, bir neçə yerdə isə bu cür qurğuların tikintisi davam etdirilir.

Azərbaycan Prezidenti İlham Əliyev görülən işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

# Fərəh Əliyevanın təkrar testinin nəticəsi neqativ çıxdı



**Profilaktik baxımdan koronavirusa (COVID-19) görə verdiyi ilk test nəticəsi müsbət olan Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva təkrar testdən keçirilib.** TƏBİB-dən hafta.az-a verilən məlumata görə, F.Əliyevadan tibbi protokola əsasən təkrar test götürülüb və təkrar testin nəticəsi neqativ olub. COVİD-19 üçün götürülən ilkin testin nəticəsi müsbət olduğundan o, tibbi protokola əsasən, 14 gün müddətində ev şəraitində izolyasiyaya alınıb.

Hazırda vəziyyəti stabil olan F.Əliyevada xəstəlik simptomları qeydə alınmayıb.

# Daha 4 rayona yeni prokuror təyin edilib

**Azərbaycan Respublikasının prokurorluq orqanlarında kadr korpusunun komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.**

Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Baş prokuror Kamran Əliyevin imzaladığı əmrlərlə Ramazan Hadıyev Beyləqan, Rauf Gözəlov Qazax, Nazim Babayev Qəbələ, Bəhruz İbrahimov isə Yardımlı rayonunun prokuroru vəzifələrinə təyin ediliblər. Kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə formalaşdırılması istiqamətində islahatlar davam etdiriləcək.

# Moskva ilə Bakı arasında münasibətlərdə heç bir çətinlik yoxdur



**Bir neçə MDB ölkəsi rəhbərlərinin Moskvada keçiriləcək Qələbə Paradında iştirak etməməsi siyasi məna daşımır.** Bu fikri "Valday" Beynəlxalq Diskussiya Klubu Fondunun Şura sədri Andrey Bıstritski söyləyib. O xatırladıb ki, MDB-nin bir neçə ölkəsində COVID-19 pandemiyası ilə əlaqədar karantin tədbirləri kəskinləşdirilib və bu səbəbdən həmin dövlətlərin rəhbərləri tədbirdə iştirak etməyəcəklər.

■**Rusiya Beynəlxalq İşlər Şurasının Baş direktoru Andrey Kortunov pandemiya şəraitində Rusiyanın Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə bağlı Moskvada keçiriləcək tədbirlərdə çoxlu sayda nümayəndə heyətinin iştirak edəcəyinə ümid bəsləmədiyini bildirib.** "Həmin dövlətlərin başçılarının Paradda iştirak etməməsi ikitərəfli münasibətlərə təsir göstərməyəcək. Dövlət başçılarının tədbirə qatılmaması, eyni zamanda, bu ölkələrin İkinci Dünya müharibəsinin nəticələrinin revizionist traktovkasına qoşulması anlamına gəlmir", - deyə ekspert vurğulayıb. Analitik Moskva ilə Bakı arasında münasibətlərdə heç bir çətinliyin olmadığını da diqqətə çatdırıb.

Xatırladaq ki, Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi münasibətilə mayın 9-da Moskvada keçirilməsi nəzərdə tutulmuş parad koronavirus pandemiyası ilə əlaqədar təxirə salınmışdı. Sonradan Rusiya Prezidenti Vladimir Putin Paradın iyunun 24-də keçirilməsi barədə qərar qəbul etmişdi.

# Amerika mətbuatı Ermənistanın faşizmi dəstəkləməsindən yazıb

**"News Blaze" nəşrində amerikalı jurnalist və publisist Nurit Qringerin "Bu yaxınlarda dərc olunmuş sənəd Amerika ermənilərinin nasizmi və antisemitizmi dəstəkləməsi barədə faktları ifşa edir" sərlövhəli məqaləsi çıxıb.**

Məqalənin müəllifi yazır ki, ABŞ Konqresinin 1945-ci ildə yazılan və bu yaxınlarda açıqlanan hesabatında daşnaklardan - 1890-cı ildə əsası qoyulan və hazırda Ermənistan, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Qarabağ regionunda, həmçinin ABŞ-da və erməni diasporunun olduğu digər ölkələrdə fəaliyyət göstərən iftamiləţçi erməni partiyasının davamçılarından bəhs edilir.

Miçiqandan olan konqresmen Frenk E.Huk tərəfindən təqdim edilən rəsmi sənəddə "Daşnaksutyun" Erməni İnqilabi Federasiyası "çoxillik faşist-terrorçu fəaliyyəti təcrübəsinə malik dəstə" kimi təsvir edilir. Sənəddə o vaxt irqçilik siyasətinə və daşnakların taktikasına qarşı çıxış edən erməni esilli amerikalılara qarşı törədilmiş şantaj və qətl halları misal çəkilir. N.Qringer yazır ki,



Amerikanın Erməni apostol kilsəsinin keşişi, arxiyepiskop Leon Turyan daşnakların ən qatı tənqidçilərindən biri olub. 1933-cü ildə Nyu-Yorkda Milad messası zamanı arxiyepiskop daşnaklar tərəfindən öldürülüb.

Konqresin hesabatının xülasəsi daha çox həyəcan doğurur. Orada göstərilir ki, daşnaklar Adolf Hitlerin ideologiyasını və nasist Almaniyasının antisemit siyasətini hərtərəfli dəstəkləyirdilər. Müəllif qeyd edir ki, daşnakların Bostonda çıxan "Hairenik" qəzetində bu barədə açıq-aşkar yazılıb və Adolf Hitler "bəşəriyyətə hədiyyə" adlandırılıb.

Ermənistanda ən "tanınmış" mühəribə qəhrəmanlarından biri olan Qaregin Njde, həm də daşnakların lideri və "Hitleryugend"in (Alman Milli-Sosialist Fəhlə Partiyasının gənclər təşkilatı) nümunəsi olaraq yaradılan və nasistlərin ari üstünlüyü nəzəriyyəsini əks etdirən erməni milli və irqçi ideologiyası olan "seqakronizm"in banisi idi. Nəticə etibarilə, təəccüblü deyil ki, Njde on minlərlə erməni əsgərindən ibarət olan və Krım, Qafqaz, Polşa və Fransada nasist döyüşlərində iştirak edən vermaxtın erməni legionuna rəhbərlik edirdi. Onlar, həmçinin yəhudilərin sürgün edilməsini dəstəkləyir, nasistlərə yəhudiləri əsir düşərgələrinə göndərməkdə yardım edir, həm də müqavimət hərəkatı döyüşçülərinə qarşı mübarizədə iştirak edirdilər.

Njdenin cinayətkarlığına bilərəkdən göz yuman Ermənistan onu açıq şəkildə "milli qəhrəman" kimi şöhrətləndirməkdə davam edir. 2016-cı ildə Ermənistan hökuməti nasistlərin bu müttəfiqinə Yerevanın mərkəzində abidə ucaldıb. Ermənistanın paytaxtında bir meydana və Yerevan metrosunun bir stansiyasına bu daşnakın adı verilib və Ermənistan məktəblərində erməni uşaqlarına onun irsini öyrədirlər.

Nurit Qringer qeyd edir ki, bu illər ərzində daşnaklar o qədər də dəyişməyiblər. Antisemitizm Ermənistanda, həmçinin dünya ölkələrində mövcud olan erməni icmalarında geniş yayılan problemdir. Yəhudilərə münasibətdə antisemitizmə və dözülməzliyin digər formalarına qarşı çıxış edən Amerika yəhudi qeyri-hökumət ictimai-siyasi hüquq müdafiə təşkilatının - Antidiffamasiya Liqasının "Qlobal indeks 100" tədqiqatının nəticələrinə dair hesabatda qeyd edilir ki, ermənilərin əksəriyyəti dərin antisemit əhval-ruhiyyədədir ki, bu saya görə də ermənilər Avropada antisemit millət hesab olunur. 2018-ci ildə Pyu Tədqiqatlar Mərkəzinin apardığı sorğuların gedişində ermənilərin 32 faizi yəhudiləri Ermənistan vətəndaşı qismində qəbul etmədiklərini bildirib.

✍ *Vüsal*

# Ermənistanın baş nazirinin idarəçilik qabiliyyəti yoxdur

***"Azərbaycan işğalçı Ermənistana diplomatiya müstəvisində böyük zərbələr vurmaqda, bu ölkənin siyasi iflasını uğurla həyata keçirməkdədir. Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubu kimi motəbər bir forumun tribunasından "Qarabağ Azərbaycandır və nida işarəsi!" bəyanatı, Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında tutarlı faktlara əsaslanan nitqi Münhen debatı zamanı səsləndirdiyi tutarlı cavabları hər bir Azərbaycan vətəndaşını qürurlandırır.***



Eyni zamanda, dövlət başçımızın əzəli torpağımız Dağlıq Qarabağla bağlı Ermənistan hakimiyyəti tərəfindən səsləndirilən sərsəm iddialara sərt və tutarlı cavabları dünya içtimaiyyətində Ermənistanın işğalçı siyasəti haqqında aydın fikir yaradıb".

■ **Bunu hafta.az-a açıqlamasında millət vəkili Pərvin Kərimzadə deyib. Pərvin Kərimzadə bildirib ki, Ermənistan növbəti belə diplomatik zərbəni iyunun 18-də Avropa İttifaqına üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının videokonfrans formatında keçirilən sammitində aldı:** "Videokonfransda Ermənistanın işğalçılıq siyasəti növbəti dəfə ifşa edildi. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin sədrliyi, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borellin iştirakı ilə videokonfrans formatında keçirilən Sammitdə Prezident İlham Əliyev tərəfindən Dağlıq Qarabağla bağlı tarixi həqiqətləri tədbir iştirakçılarının diqqətinə çatdırıldı".

Millət vəkili deyib ki, Azərbaycan Prezidentinin Qarabağla bağlı qətiyyətli mövqeyi Nikol Paşinyana, bütünlükdə erməni ictimaiyyətinə, həmçinin bu işğalçıların havadarlarına olduqca layiqli bir cavab oldu: "Videokonfransda terrora dövlət səviyyəsində dəstək verən Paşinyan yenə də sərsəm ritorikaları və diplomatiya tarixinə ləkə gətirən qeyri-ciddi çıxışı ilə diqqəti cəlb etdi. Erməni terroru ilə bağlı daha bir ifşaedici faktın Prezidentimiz İlham Əliyev tərəfindən yenidən diqqət mərkəzinə gətirilməsi Paşinyanın yalan üzərində qurulmuş çıxışını dəqiq faktlara və arqumentə əsaslanan məntiqli fikirləri ilə alt-üst etdi. Əvvəlki beynəlxalq toplantılarda olduğu kimi, növbəti dəfə də Azərbaycan Prezidenti işğalçı rejimin rəhbərinin yalanı ifşa etdi. Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammiti diplomatiya müstəvisində Ermənistanın baş nazirinin sərsəm iddialarının əsassız olduğunun daha bir nümayişi oldu".

■ **Dünyada gedən proseslər qlobal gündəliyi əks etdirir. Bir çox məqamlar var ki, onların haqqında düşünmədən davam etmək qeyri-mümkündür. Koronavirus pandemiyasının yeni dalğası bütün insanları düşündürür və narahat edir.**

Bu problemə müxtəlif ölkələrdə müxtəlif yanaşmalar vardır. İlk növbədə, onu qeyd etmək lazımdır ki, bəzi ölkələr ilk gündən etibarən qabaqlayıcı və qoruyucu tədbirlərə əl atdılar. Belə ölkələr insan amilini əsas götürərək vətəndaşlarının sağlamlığı naminə bacardıqlarını etdilər. Burada məqsəd təhlükəsizliyin təmin olunması və insanların sosial rifahının yaxşılaşdırılmasına yönəldilib. Məsələyə bu kontekstdən yanaşanda Azərbaycan və bir sıra ölkələr var ki, bir-birinə kömək edir, dəstək göstərirlər. Azərbaycan indiyə kimi Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) xətti ilə 30-a yaxın ölkəyə donorluq edib. Ölkəmizin humanitar yardımı dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Amma regionda bizimlə qonşu və təcavüzkarlıq siyasəti ilə fərqlənən Ermənistan adlı ölkə də vardır. Bu ölkədə baş verənlər heç bir məntiqə sığmır. Bu fikirləri politoloq Tofiq Abbasov söyləyib.

T.Abbasov bildirib ki, hazırda Ermənistanda koronavirus pandemiyasına yoluxanların sayı Azərbaycandan qat-qat çoxdur: "Nəzərə alsaq ki, qonşu ölkənin ərazisinin sahəsi və əhalisinin sayı bizdən dəfələrlə az olduğu halda, burada vəziyyətin nə qədər kritik olduğu bəlli olur. Məhz vaxtında qabaqlayıcı tədbirlərin görülməməsinin nəticəsidir ki, işğalçı ölkənin hakimiyyəti, siyasi dairələri vəziyyətə nəzarət etməkdə aciz qalıblar. Hakimiyyət vətəndaşları koronavirusun cənginə buraxaraq, onları taleyin ümidinə qoyub və bu amil Ermənistanda indikatora çevrilir. Təbii ki, BMT və onun ali orqanı BMT Baş Assambleyası, Avropa təsisatları, eləcə də ÜST kimi beynəlxalq qurumlar bu məsələləri diqqət mərkəzində saxlayır və baş verənlərə münasibət bildirirlər. Bəlkə də adıçəkilən qurumların indiyədək Ermənistandan gözləntiləri var idi, amma özünü doğrultmadı. Maraqlıdır ki, beynəlxalq təşkilatlar və qurumlar bütün bunları gördüyü halda, Ermənistana irad bildirmir, xəbərdarlıq etmir". Politoloq diqqətə çatdırıb ki, Ermənistanın baş naziri səriştəsizliyi ilə özünə mənfi imic qazanıb. Bu baxımdan dünyanın aparıcı qüvvələri də anlayırlar ki, Nikol Paşinyanın idarəçilik qabiliyyəti yoxdur və hakimiyyət vətəndaşları başlı-başına buraxıb. Dağlıq Qarabağ məsələsi ilə bağlı Paşinyanın boşboğaz danışıqları, hədə-qorxu gəlməsi təəccüb doğurur. Ermənistan hakimiyyəti ağır sınaq qarşısında olduğu və adi vətəndaşının problemini həll edə bilmədiyi halda bizə meydan oxuması çox gülüncdür. Ermənistan hakimiyyəti anlamalıdır ki, vaxtında praqmatik addımlar atmasa, onları çox ciddi bəlalar gözləyir. Beynəlxalq təsisatlar mütləq şəkildə qonşu ölkədə baş verənlərə laqeyd qalmamalı, təzyiqlərini artırmalıdırlar. Ermənistan təkcə Azərbaycan üçün deyil, digər qonşu ölkələr üçün də ciddi təhlükə yaradır və regionda vəziyyəti gərginləşdirir.

Müsahibimizin sözlərinə görə, nəinki Avropa İttifaqı, AŞPA, eləcə də, Qərbin dövlət və qeyri-dövlət təşkilatları Ermənistanda baş verən hadisələrə münasibət bildirməyə borcludurlar. Bu qurumlar hər zaman özlərini insan hüquq və azadlıqlarının carçısı kimi tanıdıblar. Maraqlıdır ki, Azərbaycanda baş verən kiçik bir hadisəyə anında reaksiya verdikləri halda, qonşu ölkədə baş verən haqsızlıqlara, insan hüquqlarının pozulmasına göz yummaları yolverilməzdir.

Politoloq söyləyib ki, Qərbin Ermənistana bu münasibəti onu deməyə əsas verir ki, beynəlxalq təşkilatlar və qurumlar ondan əllərini üzüblər və yaxşı heç nə gözləmirlər. Bilirlər ki, baş verənlərə münasibət bildirsələr də, heç bir nəticəsi olmayacaq. Hər halda, belə olmamalıdır, dünyanın bir nizamı vardır. Ermənistanda baş verən bütün hadisələr, siyasi repressiyalar, eləcə də "Çiçəklənən Ermənistan" partiyasının sədri, "Sarukyan" fraksiyasının lideri, milyonçu Qaqik Sarukyanla bağlı baş verənlər bir daha Paşinyanın diktator olduğunu deməyə əsas verir. Vətəndaşının ona inamı qalmayıb. Çevriliş yolu ilə hakimiyyət başına gələn Paşinyanın indi arxasında durduğu xalq yoxdur. Bu səbəbdən o, çıxış yolunu opponentlərini yolundan uzaqlaşdırmaqda görür.

"Azərbaycan Prezidenti İlham Əliyev hər zaman çıxış etdiyi tribunalardan bildirib ki, Dağlıq Qarabağ Azərbaycan torpağıdır və gec-tez biz həmin torpaqları işğaldan azad edəcəyik. Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə telefon danışığında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna biləcəyini diqqətə çatdırdı. Dövlətimizin başçısı açıq-aydın bildirdi ki, bütün üstünlük Azərbaycanın tərəfindədir, bizim istəklərimiz beynəlxalq hüquq normalarına uyğundur. Qafqaz regionunda hər zaman ali sayılan bu prinsip bu dəfə də zəfər çalmalıdır. Dövlətimizin başçısı Aİ-nin rəhbərinə xatırlatma etdi və bildirdi ki, biz Avropa İttifaqından, AŞPA-dan və digər qurumlardan ədalətli mövqe gözləyirik", - deyə Tofiq Abbasov fikirlərini tamamlayıb.

■ **"Valday", Aşqabad, Türk Şurası və Qoşulmama Hərəkatının Bakı sammitlərindən sonra işğalçı Ermənistan, onun bədnam baş naziri Nikol Paşinyan növbəti sarsıdıcı zərbə aldı.** Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammitində Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Ermənistana və Paşinyana növbəti dəfə öldürücü və sarsıdıcı siyasi-diplomatik zərbə vuruldu. Bu fikirləri isə Milli Məclisin deputatı Jalə Əliyeva deyib.

Deputat bildirib ki, Ermənistan baş nazirinin növbəti yersiz replikası və təxribatı onun və Ermənistanın bir daha fiaskosu oldu. Prezident İlham Əliyev Paşinyanı dərhal yerində oturtdu, ona layiq olduğu yerini göstərdi. Azərbaycan Prezidenti "...Bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim", - deyərək həm Paşinyanın, həm də Ermənistanın təxribatçı, təcavüzkar və işğalçı mahiyyətini bir daha açıb ortaya qoydu, hər kəsə nümayiş etdirdi. Prezident İlham Əliyevin dəmir məntiqi qarşısında heç kim Ermənistana azacıq da olsa dəstək vermədi. Bu, mümkün də deyildi.

"Beləliklə, 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Günnüt əməliyyatında Azərbaycan Ordusu tərəfindən layiqli cavab alan, ağır hərbi məğlubiyyətə uğradılan Ermənistana davamlı olaraq siyasi-diplomatik cəbhədə də ardıcıl və sarsıdıcı zərbələr vurulur. İşğalçı ölkə həm hərb meydanında, həm də diplomatik savaşda güclü və qüdrətli Azərbaycana uduzur. Bu, Ermənistan üçün artıq sonun başlanğıcıdır, bu ölkə uğursuzluğa və fiaskoya məhkumdur. Çünki əsrlərdir apardıqları bədnam, məkrli və murdar siyasət sonunda məhz bu cür də nəticələnməli idi. Nikol Paşinyanın hakimiyyətə gəlişi nəinki Ermənistanın bütün sahələrdə çöküşünün və tənəzzülünün qarşısını ala bilmədi, əksinə, bu prosesi gündən-günə sürətləndirməkdədir. Bu gedişlə onları kimsə, hətta arxalandıqları dairələr və qüvvələr də xilas edə bilməyəcək. Hər kəs onlardan üz döndərməkdə, onlara arxa çevirməkdədir. Odur ki, istər hərbi savaşda, istərsə də siyasi-diplomatik mübarizədə qələbə, zəfər mütləq şəkildə bizimlədir və bizim olacaq. Azərbaycan dövləti bütün ərazilərində öz suveren hüquqlarını tezliklə bərpa edəcək. Azərbaycan Prezidentinin də bəyan etdiyi kimi, "Qarabağ Azərbaycandır və nida işarəsi", - deyə Jalə Əliyeva xüsusi vurğulayıb.

*✍ Tural*

# Müdafiə naziri ordunun döyüşə hazır olduğunu dəlillərlə göstərdi



**Şair Ramaldanov,**
ehtiyatda olan polkovnik

**"Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir və buna tam hazırdır". Bunu "Report"a açıqlamasında ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib. Polkovnikin fikrincə, Silahlı Qüvvələrin əsas vəzifələrindən biri də Ermənistanın işğalı altında olan torpaqları azad etməkdir:**

"Müdafiə naziri, general-polkovnik Zakir Həsənov da çıxışında bildirdi ki, ordu Ali Baş Komandnın bununla bağlı əmrini yerinə yetirməyə hazırdır. Təbii ki, bu hazırlıq orduda aparılan islahatların nəticəsidir. Ona görə də cənab nazir çıxışında Azərbaycan Ordusunun bugünkü inkişafı və döyüşə hazır olması ilə bağlı kifayət qədər dəlillər gətirdi. Nazir eyni zamanda ordunun silahlanması, kadr potensialı və xidmət edən şəxsi heyətin ruh yüksəkliyindən danışaraq əsas məsələlərə diqqət çəkdi. Düşünürəm ki, Azərbaycan Ordusunun ildə bir neçə dəfə genişmiqyaslı təlimlər keçirməsi döyüş hazırlığının daim artırılmasına xidmət edir. Ordumuzun beynəlxalq təlimlərdə iştirakı və beynəlxalq yarışlarda finala çıxması göstərir ki, Silahlı Qüvvələrimizin döyüş ruhu və hazırlığı kifayət qədərdir".

Polkovnik bildirib ki, Müdafiə naziri aparılan islahatlar və görülən işləri sadalayaraq Azərbaycan Ordusunun nəyə qadir olduğunu faktlarla sübuta yetirib: "Silahlı Qüvvələr döyüş potensialını daha da artırmaqla məşğuldur. Son ayda iki müasir hərbi hissənin açılışı da bunu deməyə əsas verir. Müasir tələblərə cavab verən hərbi hissələrin istifadəyə verilməsi döyüş hazırlığımızın artırılmasına hesablanıb. Bu gün hər hansı döyüş tapşırığını yerinə yetirməsi üçün şəxsi heyətin bütün təminatları var. Ona görə də cənab nazir çıxışı ilə həm Ali Baş Komandana, həm də cəmiyyətə bir daha məruzə etdi ki, Azərbaycan Ordusu hər an bütün əmrləri yerinə yetirməyə hazırdır". Ş.Ramaldanov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin də ordunun döyüş hazırlığı haqqında yüksək fikirdə olduğunu bildirib:

"Aprel hadisələrindən sonra cənab Prezident, Ali Baş Komandan İlham Əliyev çox gözəl ifadə işlətdi. Dedi ki, əgər Azərbaycanı və Ermənistanı təkbətək qoysalar, Azərbaycan Ordusu qısa vaxtda işğalçı ordunu darmadağın edib öz ərazi bütövlüyünü bərpa etməyə qadirdir. Bu gün Silahlı Qüvvələrimiz peşəkar ordular sırasındadır, beynəlxalq arenada yüksək nüfuza sahibdir. Məhz buna görədir ki, bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordular sırasında yer alır".

# Baş redaktor və ailə üzvləri COVID-19-a yoluxub

**"Kaspi" qəzetinin baş redaktoru, Əməkdar jurnalist İlham Quliyev ailə üzvləri ilə birlikdə yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxub. Baş redaktor bu barədə sosial şəbəkə hesabında bildirib.**

"Koronavirus infeksiyası ilə mübarizə aparan xəstələrin sırasına mən və ailə üzvlərim də qoşuldu. Kompüter tomoqrafiyası ilə aparılan müayinələr ağciyərlərimin hər iki payında buzlu şüşə aşkarladı. Müalicə "Neftçilər" xəstəxanasında davam etdirilir. Çətinliklərə və ağrılara baxmayaraq, nikbinik. Tezliklə virusla mübarizəni qazanıb, normal həyata qayıdacağımıza inanırıq. Özünüzü qoruyun", - İ.Quliyev qeyd edib.



# Bakıda və 14 rayonda 600 ailəyə gigiyena əşyaları çatdırılacaq



**Səfir Li Litzenberqer 600 ailəyə çatdırılması nəzərdə tutulan gigiyena əşyalarının paylanmasından öncə Qızıl Aypara Cəmiyyətinin anbarına baş çəkib.**

ABŞ-ın Azərbaycandakı Səfirliyindən hafta.az-a bildirilib ki, iyunun 19-da Səfir Litzenberqer və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Azərbaycandakı missiyasının direktoru Cey Sinqx Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Bakıda yerləşən anbarına baş çəkərək orada USAID tərəfindən maliyyələşdirilən gigiyena əşyalarının paylanması üçün görülən hazırlıq işlərini nəzərdən keçiriblər. Bu bağlamalar Qızıl Aypara Cəmiyyətinin könüllüləri tərəfindən Bakıda və 14 digər rayonda 3,600-dən çox insanı əhatə edən 600 ailəyə çatdırılacaq. Bu yardım ABŞ-ın COVID-19 pandemiyasına qarşı qlobal cavab tədbirlərinin bir hissəsi olaraq Amerika xalqının səxavəti sayəsində mümkün olmuşdur.

"Pandemiyanın təsiri və xəstəliyin yayılmasının qarşısını almaq üçün görülən karantin tədbirləri Azərbaycanda, Birləşmiş Ştatlarda, habelə bütün dünyada bir çox ailələrin çətinliklərlə üzləşməsinə səbəb olub. Mən yerli Qızıl Aypara Cəmiyyətinin könüllülərinin Azərbaycanda insanların qida və gigiyena əşyalarının təchizatı, həmçinin sağlam qalmaq üçün zəruri məlumatların çatdırılmasında göstərdikləri xidmətlərini və əziyyətini yüksək giymətləndirirəm. Onların göstərdikləri səylər Amerikalıların xidmət və xeyriyyəçilik dəyərlərini əks etditrir. Amerika COVID-19 xəstəliyinə qarşı mübarizədə Azərbaycan könüllüləri və xalqının yanında olmaqdan qürur duyur" - deyə, Səfir Litzenberqer qeyd edib.

USAID təşkilatı Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Azərbaycan Qızıl Aypara Cəmiyyəti və UNICEF-də daxil olmaqla müxtəlif təşkilatlarla tərəfdaşlıq edərək vacib gigiyena əşyalarının paylanmasını, habelə COVID-19 xəstəliyinə yoluxmamaq və xəstəliyin yayılmasının qarşısının alınması üçün məlumatların hazırlanmasını təmin edir. USAID, həmçinin Türkiyədə çalışan 19 Azərbaycanlı həkimin Azərbaycana gəlişini təmin edən REACT-C19 layihəsini maliyyələşdirənlərdən biridir. Sözügedən həkimlər yerli xəstəxanalarda fəaliyyət göstərərək pandemiya dövründə müalicə alan xəstələrin ehtiyaclarının daha yaxşı ödənilməsini təmin etməyə çalışacaqlar.

Bu vaxta kimi Amerika Birləşmiş Ştatları COVID-19-la qlobal mübarizəyə 11 milliard dollar ayırıb. USAID və Dövlət Departamenti COVID-19 sahəsində Azərbaycan da daxil olmaqla 120 dövlətə yardım göstərib.

*✍ Vüsal*

# Torpaq yolla rayona gedən 200 sürücü məsuliyyətə cəlb olunub

**Bakıdan sürücülərin karantin postundan gizli çıxmasının qarşısını almaq məqsədilə qazılan torpaq yolu dolduraraq rayonlara getməyə cəhd edən 200-ə yaxın sürücü məsuliyyətə cəlb olunub.** Bu barədə Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri, polis polkovniki Kamran Əliyev deyib. Onun sözlərinə görə, karantin postlarından gizli keçmək məqsədilə torpaq yolun qazılmış hissəsini doldurub ərazidən çıxmağa cəhd edən şəxslər müəyyən edilib: "Həmin şəxslər qanunvericiliyin tələbinə uyğun olaraq məsuliyyətə cəlb ediliblər. Artıq bundan sonra həmin torpaq yolların qazılmasına da ehtiyac yoxdur. Çünki həmin yollarda texniki vasitələr işə salınıb və karantin postundan kənar yollarla rayonlara keçmək istəyən şəxslər müəyyən ediləcək saxlanılacaq". Xatırladaq ki, Bakı-Ələt yolunda karantin postu quraşdırılan alternativ yol qazılaraq avtomobillərin gizli yolla keçməsinin qarşısı alınıb.



Bəzi sürücülər həmin torpaq yolun qazılmış hissəsini dolduraraq bu yolla rayonlara gedib.

# ABŞ-la Avropa İttifaqı arasında rəqəmsal vergi böhranı dərinləşir

**ABŞ hökuməti İqtisadi Əməkdaşıq və İnkişaf Təşkiltanın (OECD) "Google" və "Facebook" kimi internet nəhənglərinə vergi tətbiq olunması ilə bağlı təşkil etdiyi müzakirədə iştirakdan imtina edib. Bu, Avropa ölkələrinin kəskin etirazı ilə qarşılanıb.**

Fransanın Maliyyə naziri Bruno Le Mar ABŞ rəhbərliyinin bu qərarını təxribat adlandırıb və ABŞ-ın bu hərəkətindən asılı olmayaraq verginin tətbiqinin davam edəcəyini bildirib. Britaniya mətbuatı isə ABŞ-ın Maliyyə naziri Stiven Mnuçinin Fransa, İspaniya və İngiltərənin Maliyyə nazirlərinə məktub göndərdiyi barədə məlumat yayıb. Həmin məktubda aralarında "Google" və "Amazon" kimi nəhənglərin olduğu internet şirkətlərinə tətbiq olunacaq vergilərlə əlaqədar müzakirələrə qatılmaqdan ABŞ-ın imtina etdiyi bildirilir. OECD-nin üzvlərinin vergilərlə bağlı razılaşma əldə etməyə yaxın olduqlarını qeyd edən Fransanın Maliyyə naziri bildirib: "ABŞ-ın bu məktubu bütün OECD üzvlərinə qarşı bir təxribatdır".

# Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir

***Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı və səsləndirdiyi mühüm çağırışlar, yaddaqalan təsbitlər geniş ictimai-siyasi əks-səda doğurub. İlk növbədə, qeyd etmək lazımdır ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen, quruma üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən Sammit istər tərkibinə, istərsə də müzakirə olunan mövzular baxımından böyük əhəmiyyətə malikdir.***



**Qənirə Paşayeva,**
Milli Məclisin Mədəniyyət komitəsinin sədri

Bu fikirləri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirib. Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı bir neçə məqamla diqqəti çəkir. Birincisi ona görə ki, Sammit qlobal pandemiya dönəmində keçirilir və respublikamız bu bəşəri problemlə bağlı qabaqcıl mövqeyə malikdir. Azərbaycan Prezidentinin sədri olduğu iki beynəlxalq qurum məhz onun təşəbbüsü ilə pandemiya ilə bağlı videomüzakirələr aparıb. Onlayn tədbirlərdə mühüm çıxışlar olub, mövqelər ifadə edilib. Qoşulmama Hərəkatının bu il mayın 4-də COVID-19-a həsr edilmiş onlayn Zirvə Görüşündə Avropa İttifaqı və Afrika İttifaqının iştirakı xüsusi qeyd edilməlidir. Dövlətimiz Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) maliyyə yardımı göstərib və beynəlxalq qurum koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb. Təsadüfi deyil ki, bu məqamları öz çıxışında vurğulayan Prezident İlham Əliyev Avropa İttifaqının ali nümayəndəsi Jozep Borelə videomüraciətinə görə bir daha təşəkkürünü bildirərək, bunun Aİ ilə Qoşulmama Hərəkatı arasında fəal əməkdaşlığın başlanğıcı olacağına əminliyini ifadə etdi. Əlbəttə, burada söhbət yalnız pandemiyadan getmir, Şərq Tərəfdaşlığının özünəməxsus ənənəvi müzakirə mövzuları, xüsusilə adından da göründüyü kimi, tərəfdaşlıq və tərəfdaşlıq üçün tələb olunan sülh və təhlükəsizlik, birgəyaşayış kimi mandat-missiyası vardır. Məhz bu mövzular Azərbaycanın sülhpərvər, multikultural mövqeyinə tam uyğundur. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan Şərq Tərəfdaşlığının fəal ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Ölkəmizin Avropa İttifaqının bir çox üzvü ilə ikitərəfli planda da sıx əməkdaşlığı mövcuddur.

Q.Paşayeva videokonfrans zamanı Ermənistanın baş naziri Nikol Paşinyanın Prezident İlham Əliyevin çıxışına replika atması cəhdinə də toxunub. Qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü uzun illərdir pozulub və zamanında öz havadarlarının hərbi-siyasi dəstəyi ilə işğal siyasətini həyata keçirmiş, bu bədnam siyasəti davam etdirən Ermənistanın baş naziri Nikol Paşinyanın Prezident İlham Əliyevin çıxışına replika ilə münasibət bildirmək cəhdi, ona verilən tutarlı cavab diqqət yetirməli olduğumuz ən əsas məqamlardandır. Azərbaycan Prezidenti "demokrat libaslı", işğalçı zehniyyətli Paşinyanla əvvəllər də bir neçə dəfə debatda, müzakirələrdə üz-üzə gəlib və istisnasız olaraq, həmişə onu tutarlı cavabları ilə susdurub. Aşqabadda, Münxendə və digər şəhərlərdə keçirilən toplantılarda biz bunun şahidi olmuşuq. Budəfəki toplantı da istisna olmadı və yenə də Paşinyan özünü gülünc vəziyyətə saldı, tutarlı cavabdan sonra susmağa məcbur oldu.

"Paşinyan ənənəvi erməni xisləti ilə yalan deyib, iştirakçıları o yalana inandırmaq və bu yalan üzərindəki "hücum"la, özünün, təmsil etdiyi ölkənin işğalçılıq siyasətini ikinci plana keçirmək istəyində idi. Öz diktator, hərbi cani sələflərindən guya "demokrat"lığı ilə fərqlənən Paşinyan öz replikası, çıxışı və Azərbaycan Prezidentindən aldığı sərrast cavablarla miskin duruma düşməkdən qurtula bilmədi. Hamı bilir ki, bu, birinci, ikinci hal olmadığı üçün artıq nə təsadüf, nə də tendensiya deyil, bu, artıq qanunauyğunluqdur. Bu qanunauyğunluğun diktə etdiyi ən əsas məqam ondan ibarətdir ki, dünya birliyi işğalçıya "dur" deməlidir, bölgədə sülhə, təhlükəsizliyə ən əsas maneə olan işğalçılıq sona yetməlidir, işğalçı hər hansı forma və dərəcədə beynəlxalq qınağa və məsuliyyətə cəlb edilməlidir. Bu mənada, bu yaxınlarda Avropa Parlamenti adından verilmiş, Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarında qeyri-qanuni yol çəkməsini, qanunsuz məskunlaşmanı pisləyən, respublikamızın ərazi bütövlüyünü müdafiə edən bəyanatı xüsusi əhəmiyyətə malikdir", - deyə Qənirə Paşayeva bildirib.

✍ ***Azad***

# Zelenski İranı beynəlxalq məhkəmə ilə hədələyib

**İran Ukrayna Beynəlxalq Hava Yollarına məxsus "Boeing 737" tipli sərnişin təyyarəsi ilə əlaqədar öhdəliklərini yerinə yetirməyəcəyi təqdirdə, Kiyev beynəlxalq məhkəməyə müraciət edəcək. Bu barədə Ukrayna Prezidenti Vladimir Zelenski "Globe and Mail" qəzetinə müsahibəsində deyib.**

"Ümid edirəm ki, sonda İran hökumətinin nəticəyə yönəlmiş siyasətinə arxalana biləcəyik. Çünki İran nəinki təkcə bizə "qara qutu"ları geri qaytarmır, həm də digər vədlərini yerinə yetirməyib. Onlar rəsmi şəkildə üzr istəməlidirlər. Adekvat kompensasiya ödəməli, vədlərini yerinə yetirməlidirlər. Əks təqdirdə bizim başqa bir seçimimiz qalmayacaq və beynəlxalq məhkəməyə müraciət etmək məcburiyyətində qalacağıq. Onlar bizim mövqeyimizi bilirlər", - deyə Ukrayna Prezidenti qeyd edib. V. Zelenski vurğulayıb ki, İran tərəfi uçuşu qeydə alan cihazların Kiyevə çatdırılmasının gecikməsində pandemiyanı əsas gətirir: "Lakin uzun müddətdir ki, bunu gözlədiyimiz üçün bu məsələ qeyri-müəyyən müddətə uzadıla bilməz".



Xatırladaq ki, Ukraynaya məxsus "Boeing 737" tipli sərnişin təyyarəsi yanvarın 8-də Tehranın İmam Xomeyni adına beynəlxalq hava limanında qəzaya uğraması ilə bağlı məlumat yayılıb. Hadisə nəticəsində təyyarənin göyərtəsində olan 176 nəfərin hamısı həlak olub. İran Silahlı Qüvvələrinin Baş Qərargahı Ukraynaya məxsus təyyarənin səhvən vurulduğu ilə bəyanat yayıb. Bəyanatda qeyd olunub ki, İranın İraqda ABŞ hərbi bazasına hücumu vaxtı və sonrakı saatlarda ABŞ hərbi təyyarələrinin uçuşları artıb.

İranın İmam Xomeyni hava limanından havaya qalxan təyyarənin qəfil dönüş etməsi İran İslam İnqilabı Keşikçilər Korpusunun həssas məkanlarına hücum kimi qiymətləndirilib. İran Silahlı Qüvvələri Baş Qərargahı baş verən hadisə ilə əlaqədar insan xətasına görə üzr istəyib.

# Türkiyədə sel və daşqın nəticəsində ölənlərin sayı 5-ə çatıb



**Türkiyənin Bursa vilayətində sel və daşqın nəticəsində itkin düşən şəxslərdən daha dördünün cəsədi tapılıb. Beləliklə, ölənlərin sayı beşə yüksəlib. Bir nəfərin axtarışı davam edir.**

Bursa ilə yanaşı, Sakarya, Eskişehir, Edirne, Kocaeli, Balıkesir, Ordu və digər vilayətlərdə də baş verən güclü sel və daşqın ciddi fəsadlar yaradıb. Güclü külək ağacları qırıb, maşınları sel aparıb. Şəhər mərkəzlərində yollar çöküb. Məhəllələr selin gətirdiyi daş, torpaq, lil yığını, ağac kötükləri ilə dolub. Bərpa və təmizlik işlərinə ağır texnikalar cəlb olunub. Əhaliyə külli miqdarda zərər dəyib. Türkiyə Daxili İşlər Nazirliyinin nəzdindəki Fövqəladə Halların İdarə Olunması Agentliyinin dəstələri xilasetmə və bərpa işlərini gecə davam etdirib. Daxili İşlər naziri Süleyman Soylu Bursadakı təbii fəlakət bölgəsində olub.

✍ ***Vüsal***

# Portuqaliyada 90 nəfər əyləncə tədbirində koronavirusa yoluxdu

**Portuqaliyanın cənubundakı Laquş şəhərində əyləncə tədbirində iştirak edən 90 nəfər koronavirusa yoluxub.**

Tədbir iyunun 7-də baş tutub və burada yalnız 7 nəfərin iştirakı planlaşdırılıb. Lakin tədbirə 100-dən çox qonaq gəlib. Bununla əlaqədar klub rəhbərliyi polis çağırmalı olub. Bir müddət sonra orada iştirak edən 90 nəfərdə koronavirus aşkar edilib. Qeyd edək ki, Portuqaliyada 20-dən çox şəxsin bir yerə toplaşması qadağandır. Bu günədək ölkədə 39 mindən çox yoluxma qeydə alınıb, 1 530 nəfər ölüb.

# Bərdədə bərbər iş yerində qayçı ilə öldürülüb

**Bərdədə saç ustası qətlə yetirilib. Radisə Bərdə şəhərində qeydə alınıb. Şəhər ərazisində fəaliyyət göstərən kişi salonunda işləyən Məmmədov Ceyhun Hüsü oğlu iş yerində öldürülüb.** İlkin məlumata görə, onu yanında təcrübəçi kimi çalışan şəxs qayçı ilə qətlə yetirib. Faktla bağlı cinayət işi başlanıb. Hazırda cinayəti törədən şəxsin tutulması istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.



# "Azercell"lilər bir ay ərzində #rəqəmsalgünləri birlikdə qeyd edəcək!

**Düz bir il öncə Azercell yenilənərək "rəqəmsal dünyanı" abunəçiləri ilə birgə qurmağa başladı. 2019-cu il iyunun 21-də Heydər Əliyev Mərkəzində dövlət və biznes strukturları, ictimai xadimlər və media nümayəndələrinin iştirakı ilə keçirilən möhtəşəm tədbirdə ilk dəfə olaraq 360 dərəcəlik 3D proyeksiyası nümayiş etdirildi.**




300-ə yaxın dron səmada Azərbaycan bayrağı və xəritəsinin, Azercell-in əvvəlki və yeni loqolarının təsvirini yaradaraq izləyicilərə möhtəşəm şou sərgilədi. Artıq 5 000 000-dan çox abunəçinin seçimi olan Azercell Telekom bu bayramını onlarla birlikdə qeyd etməyi planlaşdırır. Beləliklə, bu ay ərzində şirkət abunəçilərini yeni cəlbedici kampaniyalar, faydalı və əyləncəli tətbiqlərə pulsuz abunə, eləcə də Azercell-in sosial şəbəkə kanalları vasitəsilə keçiriləcək müxtəlif oyunlar, yarışmalar, müsabiqələrdə iştirak edib hədiyyə qazanmaq şansı və qiymətli rəqəmsal hədiyyələr gözləyir.

Ölkənin lider mobil operatoru Azercell Telekom ötən il bütün Azərbaycanı yeni bağlantı erasına hazırlamağı vəd edərək yeni brend kimliyini, onun ifadəsində isə yeni fəlsəfəsini cəmiyyətə təqdim etdi. Yeni nəsil rəqəmsal həllər vasitəsilə istifadəçilərinə dünyanın sonsuz imkanlarını əlçatan etməyi vəd edən Azercell, müasir texnologiyaların tətbiqi ilə onların həyatlarını əsaslı şəkildə dəyişəcəyini bəyan etdi. Beləliklə, Azercell-in çevikliyi və yenilikçi ruhunun rəmzi olacaq, keçmişlə gələcək arasında bir bağ yaradaraq hərəkət və inkişafı təcəssüm etdirəcək yeni nişanı şirkət tarixində yeni eranın başladığının əksinə çevrildi.

Beləcə, öz vədinə sadiq qalaraq cəmiyyətin rəqəmsallaşmasına doğru ən əhəmiyyətli addımlarından biri kimi 2019-cu ilin noyabrında Azercell-in ölkədə və Cənubi Qafqazda ilk 5G pilot şəbəkəsini istifadəyə verdi. 5G şəbəkəsinin operator tərəfindən ən birinci və ən tez sınaqdan keçirilməsi, eləcə də texniki yenilənməsi Azercell-i dünyanın qabaqcıl mobil rabitə təminatçıları ilə bir sırada qərarlaşdırır. Azercell şirkəti abunəçilərinin istifadəsinə daha müasir dizayna malik olan "Kabinetim" şəxsi kabinet xidmətini təqdim etdi. Ölkədə ilk dəfə olaraq "Kabinetim" tətbiqi üzərindən rabitə, kommunal və digər məişət ehtiyaclarını ödəyə biləcək "Mobil Ödəmə" xidmətini istifadəyə verdi. Smartfonlar vasitəsilə rəqəmsal xidmətlərə doğan tələbatdan irəli gələrək Azercell ötən ildə əyləncə və səmərəli istifadə üçün geniş çeşiddə rəqəmsal xidmətlərini: ivi, Zvuk, Azercell Kids, Bookmate, NNTV mobil TV, BluTV və Busuu kimi mobil tətbiqlərini abunəçilərinə təqdim etdi. Sosial layihələrini artıq rəqəmsal ifadəsində cəmiyyətə təqdim edən Azercell-in beynəlxalq "Bookmate" proqramına 650 illiyi qeyd olunan şair-mütəfəkkir İmadəddin Nəsiminin qəzəllərinin 3 dildə audio kitab formatında yerləşdirilməsi isə şirkətin Azərbaycan mədəniyyətinin təbliği və "2019 Nəsimi ili" layihəsinə böyük töhfəsi oldu.

Uşaqların və uşaq hüquqlarının müdafiəsi istiqamətində fəallığı ilə seçilən Azercell onların rəqamsal mühitdə qorunması təşəbbüsü ilə ötən il "Rəqamsal vətəndaşlıq və internet təhlükəsizliyi" mövzusunda ölkənin müxtəlif bölgələrində şagirdlər, valideyinlər və müəllimlər üçün xüsusi çoxsaylı təlimlər təşkil etdi. Azercell-in hamı üçün əlçatan etməyi qarşısına məqsəd qoyduğu rabitə imkanları cəmiyyətdə yaşanılan daha mürəkkəb və kritik zamanlarda belə əhəmiyyətli sosial qayğı kimi operativ şəkildə köməyə gəldi. Azercell dünyanın qlobal təhlükəsi olan COVİD-19 pandemiyası ilə mübarizə və sosial təcrid şəraitində həm abunəçilərinə, həm də əhalinin ayrı-ayrı təbəqələrinə dəstək göstərdi: karantin şəraitinin ilk günlərindən ölkə xaricində olan vətəndaşlara 50 azn həcmində rabitə dəstəyi; TƏBİB-lə pulsuz əlaqə qurmaq imkanının yaradılması; 65 yaşdan yuxarı vətəndaşlara üçün təmənnasız səyyar müştəri xidmətləri; pandemiya ilə mübarizə aparan həkim və tibb işçilərinə 50 azn həcmində rabitə dəstəyi; "Virtual Məktəb" portalı üzərindən çalışan müəllimlərə mobil internet balansının artırılması; onlayn təhsil alan tələbələrə rabitə dəstəyi; minlərlə aztəminatlı ailəyə ərzaq məhsullarının paylanması; əlavə xidmətlər və mobil tətbiqlər üçün endirimlər və digər növ yardımlar. Azercell bütün zamanlarda öz abunəçilərinə xidmət etməyə hazırdır və hər kəsi rəqəmsal bayramına qoşulmağa çağırır.

Azercell-in rəqəmsal günlərində hədiyyəsiz qalma!

## GÜNÜN TƏZADLARI

### Çində pandemiyaya rəğmən it əti festivalı başladı



■ **Yeni tip koronavirusun ortaya çıxdığı Çində it əti festivalına start verildi.** Hafta.az bildirir ki, iyunun 22-də Çinin Guanksi əyalətinə bağlı olan Yulin bölgəsində müzakirələrə səbəb olan it əti festivalına start verilib. Ölkənin dörd bir yanından çoxlu sayda ticarətçilər it əti almaq üçün festivala axışıblar. Festivalda minlərlə it kəsilərək, satışa çıxarılıb. Məlumata görə festival 10 gün davam edəcək. Çin mütəxəssisi Peter Li hər kəsə xəbərdarlıq edərək bildirib ki, it ətindən də insanlara müxtəlif viruslar yoluxa və nəticədə yeni pandemiya başlaya bilər. Yəni, it ətində bu potensial var. Mütəxəssis onu da qeyd edib ki, it ətinin satışını qadağan edəcək qanuna ehtiyac var.

### Yol polisi postlarda İslama aid broşuralar payladı



■ **İyunun 22-də Rusiyada faşist Almaniyasının keçmiş SSRİ-yə hücumunun başlanmasının növbəti ildönümü ilə əlaqədar qeyd olunan Anma və Kədər günündə İnquşetiya Respublikasında polisin iştirakı ilə əhalinin mənəvi-əxlaqi tərbiyəsi mövzusunda maraqlı aksiya keçirildi.** Hafta.az-ın Rusiya mediasına istinadla verdiyi xəbərə görə, İnquşetiya Respublikası Xarici Əlaqələr, Milli Siyasət, Mətbuat və İnformasiya Nazirliyinin Daxili İşlər Nazirliyi ilə birlikdə təşkil etdiyi aksiya çərçivəsində yol polisinin stasionar postlarında sürücü və sərnişinlərə "Müsəlman dövlət qulluğunda" və "İslamda vətənə sevgi" məlumat broşuraları paylanacaq. Aksiya vətənpərvərlik, vətənə məhəbbət, insanlara sevgi tərbiyəsi aşılmaq, İslam nöqteyi-nəzərindən özünü böyük bir ölkənin vətəndaşı kimi tanımağın vacibliyini anlatmaq məqsədi ilə həyata keçirilir.

### Yəhudilərin avtobusda maska taxmaqdan imtina etdiyi bilindi



■ **Statistik rəqəmlərə görə, İsraildə koronavirusa yoluxma sayının gündən-günə artsa da, ictimai nəqliyyatda yüzlərlə sərnişinin maskalardan istifadə tələbinə məhəl qoymadığı bəlli oldu.** Hafta.az xəbər verir ki, bu haqda yerli "Walla" nəşri məlumta yayıb. Sosial şəbəkələrdə şahidlərin və nəqliyyat sistemi işçilərinin dediyinə görə, israillilərin əksəriyyəti ya maskadan ümumiyyətlə istifadə etmirlər, ya da onu səhv taxırlar. Beer-Şeva sakinləri də maska taxmaq tələbinə məhəl qoyulmamasından şikayət edirlər. Şəhər sakinlərinin dediyinə görə, sərnişinlər avtobuslarda maskalardan imtina edir və fiziki məsafə qaydalara əməl etmirlər. Avtobus şirkətləri deyirlər ki, avtobus sürücüləri sərnişinlərdən yalnız maska taxmağı xahiş edə bilər, ancaq maska taxmadığına görə sərnişini bayıra çıxara bilməzlər. Avtobus Sürücüləri Birliyi hökuməti avtobuslarda sürücüləri sərnişinlərdən ayıracaq və sağlamlıqlarını qoruyacaq arakəsmələrin quraşdırılması üçün vəsait ayırmağa çağırıb.

### Zaqatalada yaşayış evini ildırım vurub yandırdı



■ **Zaqatalada fərdi yaşayış evini ildırım vurdu. Hafta.az xəbər verir ki, bazar günü axşam saatlarında Zaqatala şəhəri ərazisində Həbib Muxtar oğlu Muxtarova məxsus, ümumi sahəsi 135 kv/m olan fərdi yaşayış evində yanğın baş verib.** Yanğının söndürülməsi üçün əraziyə Fövqəladə Hallar Nazirliyinin (FHN) Zaqatala Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin iki yanğınsöndürən maşını və şəxsi heyəti cəlb edilib. Yanğın nəticəsində evin dam örtüyünün 50 kv/m-lik sahəsinin yanar konstruksiyaları və mətbəxi qismən yanıb.Evin qalan hissəsi yanğından mühafizə olunub. Yanğın zamanı xəsarət alan olmayıb.Yanğın baş verən evdə hazırda yaşayış yoxdur. Ev sahibləri qonşu Rusiya Fedarasiyasında yaşayır.

### 30 saniyədə 3 kişini vurub yerə yıxdı



■ **Türkiyənin paytaxtı Ankarada bir nəfər üç kişini 30 saniyədə zərərsizləşdirdi.** Hafta.az yazır ki, bununla bağlı DHA məlumat yayıb. Bildirilib ki, 26 yaşlı kikboksçu Ümit Ö. yolda üç nəfərlə mübahisə etdi. Ona hücum ediləcəyini görən idmançı təpik və yumruqla 30 saniyə ərzində hər üç şəxsi cəzalandırıb. Təhlükəsizlik kameralarına əks olunan dava məhəllə sakinlərinin müdaxiləsi ilə yekunlaşıb.

### Şeron Stounu ildırım vurdu




■ **Məşhur Hollivud ulduzu Şeron Stounu ildırım vurdu. Hafta.az xəbər verir ki, ildırım vurmanın təsirindən aktrisa mətbəxin digər tərəfində yerləşən soyuducuya çırpılıb.** Yaşadığı hadisənin şokundan ayrıla bilməyən aktrisanın köməyinə anası çatıb. Aktrisa olanları bu cür xatırlayıb: "Həyətimdə su quyusu var. Ütüyə su doldurmağa çıxdım. Quyuya ildırım düşdü və sudan gələn elektrik məni göyə qaldırıb mətbəxin o biri tərəfindəki soyuducuya çırpdı". Aktrisa hadisə nəticəsində huşunu itirdiyini deyib:"Hadisə vaxtı anam evdə idi. Mən huşumu itirmişdim. Anam üzümə sillə vuraraq məni özümə gətirdi. O qədər qəribə bir hiss idi ki, sözlə ifadə edə bilmirəm. Təcili avtomobilə minib, xəstəxanaya getdim".

### Şirvan sakini iki bacının oğurluğuna məruz qaldı



■ **Oğurluqda şübhəli bilinən Şirvan şəhər sakinləri olan iki bacı saxlanıldı.** Hafta.az yazır ki, DİN Mətbuat Xidmətindən "Report"a verilən məlumata görə, əməliyyatı Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları keçiriblər. Əməliyyat-axtarış tədbirləri nəticəsində iyunun 17-də Sabirabad rayon sakini M.Aslanlının cibindən 1 100 manat oğurlamaqda şübhəli bilinən şəhər sakinləri olan iki bacı saxlanıb. Araşdırma aparılır.

✍ ***Sultan Laçın***

# Azərbaycan iqtisadiyyatı bu il 2,6% geriləyəcək

***"Bu il Azərbaycan iqtisadiyyatı 2,6% geriləyəcək ki, bu, dünya iqtisadiyyatı və Yaxın Şərq və Mərkəzi Asiyanın neft ixrac edən ölkələrinin iqtisadiyyatlarının gerilməsi ilə müqayisədə daha azdır". Bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı "Azərbaycan iqtisadiyyatı: pandemiya və postpandemiya dövründə" mövzusunda keçirilən onlayn görüşdə çıxış edərkən deyib.***



Vüsal Qasımlı,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru

Onun sözlərinə görə, Azərbaycan pandemiyanın iqtisadiyyata təsirləri nöqteyi-nəzərdən daha əlverişli vəziyyətdədir: "Amma bütün hallarda pandemiyanın iqtisadiyyata təsiri qaçılmazdır və bunu hər birimiz həyatımızda hiss edirik. Azərbaycanda pandemiya ilə mübarizə sahəsində tədbirlər planı qəbul edilib və bu tədbirlər planının əsas bloku, ilk növbədə, pandemiyanın Azərbaycan iqtisadiyyatına təsirlərini minimuma endirməkdən ibarətdir". V. Qasımlı həmçinin xatırladıb ki, pandemiya dövründə dövlət sektorunda çalışan 900 mindən çox insanın əməkhaqqı ödənilir: "Baxmayaraq ki, qapanma və sosial izolyasiya şəraitində bu insanlar bəzən işə çıxmır, karantin qaydalarını əməl edir. Eyni zamanda 300 min mikro-sahibkara dəstək verildi. 600 min özəl sektorda çalışan muzdlu işçinin də pandemiya şəraitində qorunması diqqət mərkəzindədir ki, onların da 300 mininə kompensasiyaların verilməsi üçün dövlət tərəfindən dəstək verilib".

"Azərbaycanda pandemiya dövründə müvəqqəti vergi rejiminin qəbulu nəticəsində verginin "0" dərəcəsində tutulmasının əhatə dairəsi genişləndirilir". Vüsal Qasımlı deyib.

Onun sözlərinə görə, müvəqqəti vergi rejiminin əhatə dairəsi bir sıra sahələrdə müəyyənləşdirilib: "Məsələn, əmlak və torpaq vergisindən azadolmalar və mənfəət vergisindən güzəştlər müəyyənləşdirilib, sadələşdirilmiş sistem üzrə verginin azaldılması təmin edilib.

Bütövlükdə, sosial sığorta haqları ilə bağlı diferensiasiyalar həyata keçirilib ki, bunun da müsbət təsirlərinin qeyd etmək lazımdır. Bir blok tədbirlər isə maliyyə sektorunu əhatə edir. Burada xüsusi olaraq qeyd etmək lazımdır ki, bank sistemi üzrə kompleks dəstək tədbirləri nəzərdə tutulub.

Bu, həm fiziki şəxslərin dəstəklənməsi, həm də requlyativ tətil, maliyyə inklyuzivliyi, kredit ekspansiyası və maliyyə dayanıqlığının dəstəyi üzrə tədbirlərdir. Sığorta sistemi üzrə də kompleks tədbirlər nəzərdə tutulub və artıq kapital bazarlarına dəstək tədbirlərində həyata keçirilməsinə başlanılıb". Azərbaycanın pandemiya ilə mübarizə büdcəsi 3,5 mlrd. manat civarındadır ki, bu da ölkə üzrə ÜDM-in 4,3%-ni təşkil edir.

Vüsal Qasımlı deyib. Onun sözlərinə görə, bu, kifayət qədər böyük bir vəsaitdir və əgər bu vəsaitin həcmi digər ölkələrlə müqayisə edilsə, görmək olar ki, Azərbaycan pandemiya ilə mübarizəyə öz ümum daxili məhsulunun əhəmiyyətli hissəsini mobilizasiya edib: "Məhz bu tədbirlərin nəticəsidir ki, Azərbaycan bu il pandemiyadan daha az təsirlənən ölkələr sırasındadır".

*✍ Sevinc*

BÖLGƏ

## GƏDƏBƏYDƏ dolu nəticəsində kəndlərə dəyən ziyan hesablanır



**✓ Gədəbəy rayonuna qar və dolu yağıb. Qar fəsad törətməsə də, rayonun Arıxdam, Söyüdlü, Qaradağ və ətraf kəndlərinə, eləcə də rayon mərkəzinə yağan dolu kənd təsərrüfatına ziyan vurub.**

Gədəbəy rayon İcra Hakimiyyəti başçısının birinci müavini, rayon fövqəladə hallar komissiyasının sədri Natiq Nağıyev APA-ya bildirib ki, hadisə nəticəsində əkin sahələrinə, qaz xətlərinə ziyan dəyib, həmçinin kənd yolarında müəyyən keçidlər dağılıb. Gecə saatlarından hadisə yerinə komissiya üzvləri və texnikalar səfərbər edilib, dağılmış yollar bərpa olunub. Hazırda kəndlərə dəymiş ziyan hesablanır, komissiya üzvləri kəndlərə baxış keçirir.

## HACIQABUL və Şəmkir sakinlərindən silah götürülüb



**✓ Hacıqabul və Şəmkir sakinlərindən odlu silah götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini X.İmanovdan lüləsi kəsilmiş ov tüfəngi və 2 ədəd paton aşkar edilərək götürülüb.**

Şəmkir Rayon Polis Şöbəsinin əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini A.Hüseynovun evindən müvafiq sənədləri olmayan "İJ-16" markalı ov tüfəngi aşkar edilib.

## Vətəndaşlar bankda valyuta mübadiləsi əməliyyatlarını maneəsiz həyata keçirə bilərlər



**Hazırda bütün dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması nəticəsində bir çox məhdudiyyətlər tətbiq edilir.**

Bununla əlaqədar olaraq, ölkəmizdə tətbiq olunan müvafiq məhdudiyyətlərə baxmayaraq banklar yaranmış riskli şəraitdə vətəndaşlarımıza xidmət göstərməyə davam edir, mümkün qədər müştəri məmnuniyyətinin təmin edilməsi və Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri çərçivəsində vətəndaşların bütün növ bank xidmətlərinə, o cümlədən xarici valyutaya olan tələblərinin tam ödənilməsi üçün fasiləsiz çalışırlar. Azərbaycan Banklar Assosiasiyasından (ABA) hafta.az-a bildirilib ki, son günlər bəzi mətbu orqanlarında və sosial şəbəkələrdə banklar tərəfindən Azərbaycan Respublikası Mərkəzi Bankının yeni tələbləri çərçivəsində xarici valyuta əməliyyatlarının həyata keçirilməsi üzrə yeni məhdudiyyətlərin tətbiq edilməsi barədə məlumatlar və müzakirələr yer alıb. Banklar tərəfindən hazırkı dövrdə xarici valyuta üzrə mübadilə əməliyyatlarının həyata keçirilməsi ilə əlaqədar hər hansı bir yeni qayda tətbiq edilmir və bununla bağlı banklara hər hansı yeni prosedurların müəyyən edilməsi ilə əlaqədar Mərkəzi Bankdan sənəd daxil olmayıb. Hazırda ölkəmizdə həyata keçirilən kölgə iqtisadiyyatına qarşı mübarizə, şəffaflığın təmin edilməsi tədbirləri çərçivəsində banklar mövcud qanunvericiliklə onlara həvalə edilmiş vəzifələrini tam həcmdə həyata keçirilməsini təmin edir.

Vətəndaşlar Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən edilmiş karantin rejiminin tələblərinə əməl etməklə istənilən bankda valyuta mübadiləsi əməliyyatlarını mövcud qanunvericiliyin tələbləri çərçivəsində, heç bir əlavə məhdudiyyət və maneə olmadan tam həcmdə həyata keçirə bilərlər.

## Gömrük Akademiyasında onlayn imtahanlar davam edir



**Dövlət Gömrük Komitəsinin Akademiyasında 2019/2020-ci tədris ilinin yaz semestrinin imtahanları Akademiyanın Elmi Şurası tərəfindən qəbul edilmiş yeni qaydalara əsasən Akademiyanın elektron imtahan sistemindən istifadə edilməklə, Microsoft Teams proqramı vasitəsilə onlayn qaydada şifahi şəkildə keçirilir.**

Onlayn dərslərdə iştirak edib-etməməsindən asılı olmayaraq, Akademiyanın bütün tələbələri imtahanlara buraxılırlar.

Tələbəyə suallar Akademiyanın elektron imtahan sistemi tərəfindən ünvanlanır. Tələbə sualları onlayn qaydada şifahi şəkildə cavablandırır. Tələbəyə düşünmək üçün 20, sualları cavablandırmaq üçün əlavə 20 dəqiqə vaxt verilir.

Akademiya tərəfindən imtahanların onlayn şəkildə keçirilməsi və qiymətləndirmə ilə bağlı qəbul edilmiş qaydalar haqqında valideynlər, müəllimlər və tələbələr, həmçinin nəzarətçilər keçirilən onlayn iclaslar zamanı məlumatlandırılıb. İmtahanlardan öncə tələbələr imtahan qaydaları barədə yazılı şəkildə də məlumatlandırılıblar və onlar üçün sınaq onlayn imtahan təşkil edilib. Semestr imtahanları 10 iyul 2020-ci il tarixində başa çatacaq. Xatırladaq ki, qəbul edilmiş yeni qaydalara əsasən, 2019/2020-ci tədris ilinin yaz semestrinin semestr daxili imtahanları da Akademiyanın elektron imtahan sistemindən istifadə edilməklə, Microsoft Teams proqramı vasitəsilə onlayn qaydada, şifahi şəkildə keçirilib.

*✍ Hafta.az*

## GƏNCƏDƏ genişmiqyaslı dezinfeksiya işləri davam etdirilir



**✓ Nazirlər Kabinetinin müvafiq qərarına əsasən Gəncədə də tətbiq olunan iki həftəlik sərt karantin rejimi nəzərə alınaraq, şəhərdə həyata keçirilən tibbi-profilaktiki tədbirlər daha da genişləndirilib.**

Şəhərin mərkəzi hissəsində, o cümlədən qəsəbə və yaşayış massivlərində aparılan dezinfeksiya işləri davam edir. COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən işlərə Gəncə Şəhər Dezinfeksiya Stansiyasının əməkdaşları və Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin texnikaları cəlb olunub. Gəncənin əsas küçə və prospektləri, o cümlədən "Gəncəçay" park-bulvar kompleksi, Xan bağı, N.Nərimanov və M.Füzuli parklarının ərazisi xüsusi kimyəvi məhlulla yuyulub. Səkilərdə, yol kənarlarında, park və meydanlarda, obyektlərin qarşısında da tibbi-profilaktiki işlər görülüb. Bununla yanaşı yaşayış binalarında, həyət və yaşayış məhəllələrində, idman-əyləncə qurğularında da dezinfeksiyaedici tədbirlər həyata keçirilib.

## Tikinti materiallarının qiyməti artıb



**Son günlər tikinti materiallarının qiymətində artım baş verib. Qiymət artımı əsasən daşlarda müşahidə olunur. Yəni 45-50 qəpiyə satılan daş 60 qəpiyə 30 qəpiyə satılan kərpiclər isə 37-40 qəpiyə təklif olunur.**

Bundan əlavə taxta, dəmir və digər materialların da qiymətində kəskin bahalaşma var. Bahalaşma pərakəndə satışla yanaşı, tikinti bazarlarında da müşahidə olunmaqdadır. Bakı şəhərində ən böyük tikinti bazarı sayılan Dərnəgül Tikinti Bazarında da sorğu aparan zaman qiymətlərin bahalaşmasını görmüş olduq.

Bəs qiymətlərin belə kəskin artmasına səbəb nədir? Bu haqda hafta.az-a danışan iqtisadçı ekspert Rəşad Həsənov səbəbləri belə izah etdi: "Qiymətlərin artması böyük ehtimalla iki səbəbə görə ola bilər: Birincisi tikinti materialların çoxu xaricdən Azərbaycana idxal olunur. Hazırda karqo ilə bağlı bahalaşma var. Məhsulların gətirilməsinin maya dəyəri yüksək olduğu üçün, sahibkarlar da onun satışına əlavə məbləğ artırmalı olurlar. İkinci böyük ehtimal olunan səbəb pandemiya ilə bağlıdır. Çünki may ayından etibarən tikintilərdə iş dayanmışdı. Karantin yumşadıldıqdan sonra tikintilərdə tələbat olduğuna görə bahalaşma da ola bilər. Sahibkarlıq subyektləri üçün bu səbəb də qiymət artımına şərait yarada bilər".

*✍ Ruzbeh*

## BEYLƏQANDA 36 mənzilli yaşayış binası tikilir



**✓ Beyləqanda istismar müddəti başa çatmış çoxmənzilli binaların sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 36 mənzilli yaşayış binası inşa edilir. Yaşayış binasının tikintisi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 fevral tarixli Sərəncamına əsasən həyata keçirilir.**

Məhəmməd Əsədov küçəsində inşa olunan bina dördmərtəbəlidir. İki otaqlı mənzillərdən ibarət yaşayış binasında dəmir-beton, hörgü, elektrik işləri başa çatdırılıb. Hazırda binada dam örtüyü və döşəmə vurulur, qapı və pəncərələr qoyulur, suvaq işləri görülür. Binanın həyətində hər biri 100 kubmetrlik yanğın əleyhinə və içməli su anbarı inşa olunacaq, 250 kilovatlıq transformator quraşdırılacaq.

Yaşayış binasının həyətində abadlıq işləri aparılacaq, uşaqlar üçün əyləncə yerləri yaradılacaq.

## Dünyada turizmə 195 milyard dollar ziyan dəyib



**2020-ci ilin ilk dörd ayı ərzində dünyada turizm gəlirləri ötən ilin əvvəli ilə müqayisədə 195 milyard dollar azalıb. Bu barədə BMT-nin Ümumdünya Turizm Təşkilatının hesabatında deyilir.**

Hesabatda qeyd olunur ki, yanvar-aprel aylarında digər ölkələrə səyahət edən turistlərin sayı 97 faiz azalıb. Təşkilatın proqnozlarına əsasən, 2020-ci il ərzində turistlərin sayı 850 milyon - 1,1 milyard nəfər, turizm gəlirləri isə 910 milyard - 1,2 trilyon dollar azala bilər. Qeyd edək ki, 2019-cu ildə digər ölkələrə səfər edən turistlərin sayı 1,5 milyard nəfərə çatmışdı. Bu, 2018-ci illə müqayisədə 4 faiz çox idi.

## 137 obyektdə sanitar-epidemioloji tələblərin pozulmasını aşkarlanıb

Ticarət, xidmət və istehsal obyektlərində növbəti monitorinqlər keçirilib. İqtisadiyyat Nazirliyindən hafta.az-a verilən məlumata görə, xüsusi karantin, zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji tələblərə əməl edilməsinə nəzarət məqsədilə iyunun 20-də keçirdiyi növbəti monitorinqlərdə Binəqədi rayonunda "Arzu market"də, "Dönər-bura"da, Kərim Manafova məxsus "Zərgərlik emalatxanası"nda, Yasamal rayonunda "Xəzər mebel"də, "Salıoğlu" mağazasında, Xətai rayonunda Amalya Əlimovaya məxsus "Oyuncaq mağazası"nda, Asif Şahnəzərova məxsus "Çay evi"ndə, Səbail rayonunda "Breno mağaza"da, Mirkamran Salahova məxsus "Bərbər" xidmət obyektində, Sabunçu rayonunda "Samir market"də, Cəlil Əmirəhmədova məxsus "Xırdavat" mağazasında, Nizami rayonunda "Ləzzət dönər"də, "Çinarlı kafe"də, "Kafe dostlar"da, Elşən Mirzəyevə məxsus "Şaurma"da, Aydın Məmmədova məxsus "Ət mağazası"nda, Rizvan İsgəndərova məxsus "Market"də, Gəncə şəhərində "Elit Kosmetika" mağazasında, "Lider M" MMC-yə məxsus "Merkuriy" xidmət obyektində, Lənkəran rayonunda "Limon Market"də, "Ruslan Market"də, İlham İbayevə məxsus "Ərzaq mağazası"nda, Şamaxı rayonunda "Yarpaq Dönər"də, "Sarvan Market"də, Zərbalı Qədirova məxsus "Avtoehtiyyat hissələrinin satışı", Fərid İskəndərova məxsus "Qapı satışı" mağazalarında, Füzuli rayonunda "Al Market"də, "Oba Market"də, "Sədərək Ucuzluq" qarışıq mallar mağazasında, Bərdə rayonunda "Eurolux" elektronika mallarının satışı mağazasında, Xaçmaz rayonunda "Quba təndiri" çörək istehsalı müəssisəsində, Sabir Quliyevə məxsus "Un mağazası"nda, ümumilikdə monitorinq keçirilmiş 309 obyektdən 137-də zəruri sosial davranış qaydalarına və sanitar-epidemioloji tələblərə əməl olunmaması hallarına rast gəlinib.

Nazirliyin əməkdaşları monitorinqlər zamanı sahibkarlarla maarifləndirici söhbətlər aparıb, zəruri qayda və tələblərə tam əməl olunması, qabaqlayıcı profilaktik tədbirlərin görülməsi zəruratini bir daha diqqətə çatdırıblar.

Qeyd edək ki, mayın 22-dən iyunun 22-dək monitorinq keçirilmiş 7855 sahibkarlıq subyektindən 3422-də zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji tələblərin pozulması halları aşkarlanıb.

## QUBA-Xınalıq yolu qaya parçalarından təmizlənib



**✓ İyunun 21-i gecə saatlarında dağlardan qopan böyük qaya parçalarının Quba-Xınalıq yolunun hərəkət hissəsinə düşməsi nəticəsində yol müvəqqəti bağlanıb.**

Hadisə yolun 52-ci kilometriliyində qeydə alınıb. Gecə saatlarında yolda qalan vətəndaşlar qaya parçalarının bir hissəsini yoldan təmizləyərək hərəkətə davam ediblər.

Hadisə yerinə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yerli qurumunun əməkdaşları və xüsusi texnikası cəlb edilərək, yol qaya parçalarından tamamilə təmizlənib.

## Yekaterinburqda "Azərbaycan evi" inşa ediləcək



**Rusiyanın Yekaterinburq şəhərində "Azərbaycan evi" inşa olunacaq.** Sverdlovsk vilayəti "Azərbaycan" İctimai Təşkilatının rəhbəri Şahin Şıxlinski AZƏRTAC-a bildirib ki, sentyabrın 1-dək yeni binanın tikintisi üçün sahə ayrılacaq və 18 mərtəbəli "Azərbaycan evi" kompleksinin inşasına başlanacaq. Hazırda Sverdlovsk vilayəti hökuməti ilə danışıqlar aparılır və binanın tikintisi üçün bir neçə sahə təklif olunub.

# Bu il ən isti yay ola bilər

Mütəxəssislərin proqnozlarına görə, bu ilin ilk beş ayında Yer səthindəki temperatur istiliyinə görə ikinci ən yüksək göstəriciyə sahib olub

***Bu ilin hava və iqlim sistematik müşahidələri tarixində ən isti illərin ilk beşliyinə düşmə ehtimalı var. Qeyd edək ki, belə proqnozla BMT-nin ixtisaslaşmış qurumu olan Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) çıxış edib. Məlumata görə, bu ilin may ayı hava və iqlim müşahidələri tarixində ən isti may ayı olub, yanvar-may ayları arasındakı dövr isə yalnız 2016-cı ilin analoji periodundan geri qalıb: "Bu ilin ilk beş ayında Yer səthindəki temperatur istiliyinə görə ikinci ən yüksək göstəriciyə sahib olub. Yalnız "El Ninyo" effektinin güclü olduğu 2016-cı ildə bundan bir qədər yüksək istilik olmuşdu.***



Avropa və Amerika məlumat bazalarına əsasən, may ayı müşahidələr tarixindəki ən isti may olub. 2020-ci il isə, 99,9 faiz ehtimalla, qeydə alınmış ən isti 5 və ya 10 il arasında olacaq". Məlumatda o da vurtğulanır ki, Cənubi Amerika, Avropa və Asiyada 2020-ci ilin ilk beş ayı müşahidələr tarixində ən istisi olub. Asiyanın şimalındakı böyük ərazidə havanın temperaturu orta göstəricidən az 3,5 dərəcə isti olub. Yanvar-may aylarında Atlantik okeanında, Sakit okean və Hind okeanının cənubunda rekord yüksək temperatur qeydə alınıb.

Avropanın və Amerikanın bəzi alimlərinin fikrincə də, 2020-ci il bütün dünyada havanın hərarəti üzrə ən rekord göstərici ili ola bilər. Alimlərin müşahidələrinə görə, ötən il ən isti il kimi tarixə düşüb, bu il həmin rekordun yenilənəcəyi istisna olunmur.

ABŞ-ın okean və atmosfer tədqiqatları üzrə Milli İdarəsinin (NOAA) məlumatına görə, 2020-ci ilin ilk 3 ayı onsuz da müşahidələr tarixinin ən isti dövründən biri olub - bu müddət 2016-cı ilin eyni 3 ayı ilə müqayisədə temperatur rekordunda ikinci olub. NOAA alimləri 2020-ci ilin müşahidə tarixində 75 faiz ehtimalla tarixin ən isti il olacağını proqnozlaşdırırlar. Temperatur xüsusilə Avropada aktiv yüksəlir - burada orta temperatur XIX əsrdə ümumi dünyadakı ilə müqayisədə (1,1 dərəcə) 2 dərəcə yüksəlib. Britaniyanın iqlim araşdırmaları üzrə Milli mərkəzinin direktoru Rouen Sattonun sözlərinə görə, bu iki əsas amillə bağlıdır: birincisi, torpaq, ümumiyyətlə, okeandan daha sürətlə qızır, ikincisi, daha aktiv istiləşməyə Avropada hava çirkliliyinin azalması töhfə verir, bunun sayəsində yerin səthi də daha sürətlə qızdırılır.

Qlobal istiləşmə ilə bağlı alimlərin apardığı yeni tədqiqat isə göstərib ki, son 25 ildə okeanlarda suyun hərarətinin artması daha intensiv hal alıb. Dənizlərin tərkindən çıxarılan xam neftin həcmi isə ümumi karbohidrogen ehtiyatlarının 60 faizinə çatıb. Bu amillər planetimizdə yeni fəlakətlərə yol açacaq qlobal istiləşmə prosesini sürətləndirir, həmçinin böyük su hövzələrində biomüxtəlifliyə ciddi təhlükə törədir.

Hökumətlərarası İqlim Dəyişiklikləri Panelində (IPCC) təqdim olunan hesabata görə, dünya okeanları istixana qazlarının təsirinə normadan 90 faiz artıq məruz qalıb. Nəticədə, Yer kürəsinin atmosferi karbon dioksid qazına qarşı daha həssas hala gəlib. Tədqiqat müəlliflərinin qənaətinə görə, vəziyyətdən çıxış yolu hökumətlərin imzaladığı Paris sazişinin şərtlərinə əməl edilməsidir. Qeyd olunur ki, IPCC-nin başlıca hədəfi - havanın temperaturunun sənayeləşmə dövründən əvvəlki səviyyəyədək 1,5 dərəcə selsi düşürülməsi üçün təxirəsalınmaz tədbirlər görülməlidir.

ABŞ-ın Nyu-Cersi şəhərindəki Prinston Universitetinin professoru Laura Resplandinin sözlərinə görə, karbon dioksid qazının atmosferə buraxılmasını kəskin şəkildə aşağı salmaq istiqamətində həyata keçirilələk bu tədbirlər nəticəsində insanların müxtəlif sahələrdə - sənayedə, kənd təsərrüfatı və inşaat sektorunda fəaliyyət səviyyəsi 25 faiz azalmalıdır. Lakin bu azalma real görünmür. "Daha isti okeanlar oksigeni daha az saxlayır və bu, su hövzələrində ekoloji tarazlığı pozur. Digər tərəfdən, okeanlarda istiləşmə dənizlərdə suyun səviyyəsinin qalxmasına da səbəb olur", -deyə amerikalı alim əlavə edib.

Tədqiqat müəllifləri və iqlim dəyişiklikləri üzrə ekspertlər texnologiyanın inkişafı, yeni və ekoloji cəhətdən təmiz enerji mənbələrinin istifadəyə verilməsini vəziyyətdən yeganə çıxış yolu hesab edirlər.

Bundan başqa, Beynəlxalq Əmək Təşkilatının ötən il dərc etdiyi hesabatda bildirilib ki, qlobal istiləşmə nəticəsində 2030-cu ilə qədər dünya iqtisadiyyatına 240 milyard dollar ziyan dəyə bilər. Qeyd olunub ki, planetdə gedən iqlim dəyişikliyi nəticəsində 2030-cu ilədək yer üzündə 80 milyon iş yeri azala bilər. Zərərin, əsasən, Cənubi Asiya və Qərbi Afrika ölkələrində olma ehtimalı daha böyükdür. Vurğulanıb ki, qlobal istiləşmə nəticəsində yaranan mənfi proseslər varlı və kasıb təbəqə arasında bərabərliyi daha da dərinləşdirəcək.

Məlumat üçün bildirək ki, temperatur yüksəldikcə bir çox bitki və heyvanların yaşayış yerləri dəyişikliklərə məruz qalır. Bu növlər uzun dövrlər ərzində uyğunlaşdıqları ekoloji sığınacaqlar və xarakterik həyat şəraitlərindən məhrum olurlar. Bir çox növlərin sürətlə dəyişən şəraitlə ayaqlaşa bilməyib məhv olması ekosistemin tarazlığını pozur. Mütəxəssislərin hesablamalarına görə yüksək dağlıqlardan ibarət yaşayış yerlərinin 60 faizi qlobal istiləşməyə məruz qalacaq. Buzlaqların əriməsi, bitkilərin vaxtından əvvəl çiçəkləməsi, atmosfer havasının temperaturunun yüksəlməsi - bütün bunlar qlobal iqlim dəyişmələrinin əlamətləri hesab edilir. Son 150 il ərzində axırıncı 12 ilin 11 ili bütün dövrlərin ən isti illəri sayılır. Yer tarixində 20 ədəd rekord isti yay dövrü olmuşdur ki, bunlar da1980-ci ildən bu dövrə təsadüf edir. İstiləşmə ilə bağlı deqradasiyaya məruz qalmış, həyat qabiliyyətini itirmiş ölü zonalar getdikcə artır. Bu ekoloji fəlakətin bir səbəbi və evtrofikasiya - dəniz sularında üzvi maddələrin (xüsusən azot və fosfor tərkibli) ifrat konsentrasiyası ilə bağlıdır. BMT-nin "Minilliyin astanasında ekosistemin qiymətləndirilməsi" (Millenium Ecosystem Assessment) mövzusundakı 2005-ci il hesabatında qeyd edilir ki, 1860-cı ildən 1990-cı ilədək dənizə atılmış azot birləşməli maddələrin miqdarı 80 faiz artıb. Ekosistemin evtrofiyanın təsiri ilə dəyişməsi əraziyə yeni növlərin gəlişinə səbəb olur.

Azərbaycan ərazisindəki mümkün iqlim dəyişmələrinin analizi isə 100 illik müşahidələr əsasında araşdırılıb. Aparılan tədqiqatlar göstərib ki, 100 illik müşahidələr dövründə ölkə ərazisində havanın temperature 0.5-0.60 C artmış, 1961-1990-cı illərdə temperatur artımı daha yüksək: 0.3-0.60 C olub. Ümumilikdə bütün ərazidə istiləşmə baş verməsinə rəğmən bu proses ölkənin müxtəlif coğrafi ərazilərində müxtəlif olub. Belə ki, Böyük Qafqaz, Kür-Araz ovalığında temperatur artımı yüksək (0.50-0.650 C) olduğu halda, Kiçik Qafqazın dağlıq ərazilərində bu göstərici nisbətən az (0.14-0.200 C) təşkil edib.

Müxtəlif modellər əsasında Azərbaycan ərazisinin gələcək iqlim dəyişmələri də qiymətləndirilib. Bu modellərə əsasən atmosferdə CO2 konsentrasiyasının iki dəfə artması nəticəsində əsrin sonunda ölkə ərazisində aşağıdakı hadisələr gözlənilir:

- orta illik temperatur 20 C artacaq;
- illik yağıntıların miqdarı 6-12 faiz artacaq: qış yağıntıları 15-21 faiz, yaz və payız yağıntıları 9-17 faiz artacaq, yay yağıntıları təxminən 40 faiz azalacaq;
- su resursları 5.7-7.7 km3 azalacaq, su çatışmazlığının bugünkü qiyməti (5 km3) getdikcə artaraq XXI əsrin ortalarında 9.5-11.5 km3 olacaq;
- istilik resursları 700-12000 C artacaq, havanın temperaturunun bu intervaldan yüksək olan günlərinin sayı 25-45 gün uzanacaq;
- isti və mülayim qurşaqların sahəsi genişlənəcək, soyuq qurşağın sahəsi isə azalacaq, illik buxarlanma 35 faiz (180-540 mm) artaraq isti dövrlərdə 120-470 mm, yayda isə 200 290 mm olacaq;
- rütubətli zonalar 100-200 m, bəzi ərazilərdə 400-500 m yüksəkliklərə irəliləyəcək, əksər ərazilərdə bioiqlim potensialı regionlardan asılı olaraq 5-20 faiz artacaq, Talışda 7 faiz azalacaq, dağlıq və dağətəyi ərazilərin bioiqlim potensialının artımı hiss olunan, quru-bozqır və yarımsəhra ərazilərdə isə çox cüzi olacaq;
- yarımsəhra və quru çöl iqlim zonası genişlənəcək, hüdudları 100-200 m, bəzi yerlərdə 400 m yüksəkliklərə qalxacaq. Azərbaycanda səhralaşma prosesi sürətlənəcək. Müasir Kür-Araz ovalığının, cənubi Abşeronun və Naxçıvanın Arazsahili düzənlik ərazilərinin yarımsəhra sahələrinin əksər hissəsi səhra iqlim tipinə keçəcək. Müasir quru-çöl əraziləri aşağı və çox aşağı bioiqlim potensialına malik olan yarımsəhra kompleksinə çevriləcək. Yarımsəhra və səhra iqlim tipinin hakim olduğu ərazilərin ümumi sahəsi 30.5 - 43.5 km2 olub ölkə ərazisinin 35-50 faizini təşkil edəcək.

✍ **Sevinc**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ekologiya və ətraf mühitin mühafizəsi

# Sosial xidmət sahəsində vahid informasiya məkanının yaradılması nəzərdə tutulur

**"Aparılan islahatlar həssas qruplara yönələn sosial xidmətləri də əhatə edir. Bu sahədə əsas hədəflər sosial xidmətlər üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi və bu xidmətlərin yeni istiqamətlər üzrə əhatə dairəsinin genişləndirilməsidir.**



Eyni zamanda, müasir yanaşmalar əsasında sosial xidmətlərin keyfiyyətinin və çətin həyat şəraitində olan şəxslərin bu xidmətlərə əlçatanlığının artırılması, sosial xidmət sahəsində ixtisaslı kadr potensialı formalaşdırılması vacib hədəflər sırasındadır". Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Nazirlikdə sosial xidmət məsələləri ilə bağlı videokonfrans formasında keçirilən iclasda bildirib.

Nazir qeyd edib ki, Prezident İlham Əliyevin tapşırığı ilə pandemiya dövründə daha bir sosial dəstək kimi, tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlar da evlərində gündəlik sosial məişət xidmətləri ilə əhatə olunublar. Bununla da evlərində sosial xidmət göstərilənlərin sayı 15 mini ötüb. Həmçinin Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan sosial xidmət müəssisələrində 1000-dək vətəndaş tam dövlət təminatındadır. Sosial sifarişlər əsasında minlərlə şəxs reabilitasiya yönümlü sosial xidmətlərlə əhatə olunur.

S.Babayev sosial xidmətlərin ehtiyacı olan vətəndaşlar üçün əlçatanlığının artırılması, beynəlxalq norma və standartlara uyğun təkmilləşdirilməsi, ünvanlılığının təmin edilməsi üçün müvafiq islahatların davam etdirildiyini deyib.

Nazir bildirib ki, strateji məqsədlərdən biri də sosial xidmət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, qabaqcıl dünya ölkələrinin təcrübəsinə əsaslanan yeni sosial xidmət modellərinin yaradılması və tətbiqi, innovativ texnologiyaların tətbiqi nəticəsində sosial xidmət sahəsində vahid informasiya məkanının yaradılmasıdır. Sosial xidmətlər sahəsində də müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından daha geniş istifadə nəticəsində innovativ yeniliklərin tətbiqi təmin olunacaq.

İclasda çətin həyat şəraitində olan şəxslərin sosial xidmətlərlə təminatı və bu xidmətlərin keyfiyyətinin artırılması, Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi publik hüquqi şəxsin yaradılması sahəsində görülən işlər, sosial xidmət sistemində aparılan islahatlar, bu sahədə qarşıda duran vəzifələr ətraflı müzakirə olunub.

✍ **Hafta.az**

# Sərt karantin günlərində qaydalara riayət etmək lazımdır

**"Sərt karantin günlərində qoyulan qaydalara, karantin rejiminə riayət etmək lazımdır. Bayıra çıxanda tibbi maskanı taxmaq tövsiyyə olunur. Bayırdan içəri daxil olanda gigiyenik qaydalara əməl edilməlidir. Əllər sabunla və digər dezinfeksiya edici məhlullarla yuyulmalıdır. Xəstə insanlarla yaxın təmasdan çəkinmək lazımdır".**



Bunu hafta.az-a açıqlamasında həkim Məlahət İsayeva deyib. Həkimin sözlərinə görə, bundan əlavə yaxşı qidalanmaq, idman etmək də faydalıdır: "Vitamin "C" qəbul etmək lazımdır. Çox yatmaq da bir şey deyil, idman etmək tövsiyyə olunur. İnsanlar sərt karantin rejimi günlərində də evdə aktiv həyat tərzi sürməlidir. İnsanlar ruhdan düşməsinlər. Ruhdan düşməyin özü də xəstəliklər yarada bilər. Aktiv həyat tərzini ev şəraitində mümkün qədər gerçəkləşdirsinlər".

Məlahət İsayeva bildirib ki, koronavirusa yoluxanların sağalması üçün həkimlər əllərindən gələni edirlər: "Sərt karantin rejimi 2 gündür ki, tətbiq edilir. Yoluxma sayında artma və ya azalma olmasını demək bu müddət ərzində çətindir. Biz əlimizdən gələni edirik ki, xəstələr tez sağalsınlar. Ailələrinin yanına dönsünlər. Koronavirus pandemiyasını ağır şəkildə keçirənlər daha çox yanaşı xəstəlikləri olanlardır. Ağır xəstələrimiz reanimasiyada müalicələrini davam etdirirlər. İnsanlar evdə sıxılmamalıdırlar. Ümid edirik ki, tezliklə bu xəstəliyə qalib gələcəyik. Sadəcə olaraq birlik nümayiş etdirib bunun öhdəsindən gəlməliyik. Biz bunu bacaracağıq".

✍ **Tural**

# Bu il Həcc ziyarəti baş tutacaq?



**Bu il Azərbaycandan Həcc ziyarətinin baş tutması qeyri-mümkün görünür. Bu barədə Trend-ə Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) məlumat verilib.** Qeyd olunub ki, hələ ki, Səudiyyə Ərəbistanından Həcc ziyarəti ilə bağlı hər hansı bildiriş gəlməyib, ancaq çox güman ki, "yox" cavabı veriləcək. Digər tərəfdən burada vaxt məsələsinin də mühüm rol oynadığı bildirilib.

Vurğulanıb ki, Həcc ziyarəti müəyyən prosedur əsasında baş tutur, yeni sənəd qəbulu, aviareyslərin təşkili və s. Bütün bunlar vaxt tələb edən məsələlərdir. Əgər iyun ayının sonuna qədər sənəd qəbulu bərpa olunsa idi, Həcc ziyarəti baş tuta bilərdi.

Lakin hazırda koronavirus səbəbindən həm ölkəmizdə, həm də Səudiyyə Ərəbistanında karantin rejimi tətbiq olunur və belə bir şəraitdə bu prosedurların həyata keçirilməsi mümkünsüzdür. Həcc ziyarəti isə Qurban bayramı zamanı baş tutmalıdır.

Qeyd edək ki, Azərbaycanda karantin rejimi tətbiq olunana qədər 250-dən çox insan Həcc ziyarətinə getmək üçün müraciət edib. Martın 24-dən Həcc ziyarətinə sənəd qəbul edilmir. Ümumilikdə isə Həcc ziyarətinə sənəd qəbuluna yanvarın 27-də başlanmışdı.

Ziyarətin qiyməti 4 490 dollardır. Ötən il isə bu məbləğ 4 285 dollar olub. Builki qiymət artımı hotel xidmətlərinin bahalaşması və viza rüsumunun tətbiq edilməsi ilə bağlıdır.

✍ **Hafta.az**

# Pandemiya Azərbaycana gələn turistlərin sayında ciddi azalmaya səbəb olub



**2020-ci ilin yanvar-may aylarında Azərbaycana dünyanın 152 ölkəsindən 563,9 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,9 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**

Bu dövrdə ölkəmizə gələnlərin 30,2 faizi Rusiya Federasiyası, 27,3 faizi Gürcüstan, 13,2 faizi Türkiyə, 6,7 faizi İran, 2,2 faizi Hindistan, hər birindən 2,1 faiz olmaqla Səudiyyə Ərəbistanı və Ukrayna,1,4 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,3 faiz olmaqla Pakistan, Küveyt və Qazaxıstan, 1,1 faizi Türkmənistan, hər birindən 0,9 faiz olmaqla İraq və Böyük Britaniya, 0,8 faizi Özbəkistan, 0,7 faizi İsrail, 6,4 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 75,1 faizini kişilər, 24,9 faizini qadınlar təşkil edib.

Cari ilin yanvar-may aylarında Çindən gələnlərin sayı 5,5 dəfə, Cənubi Koreyadan - 4,4 dəfə, Birləşmiş Ərəb Əmirliklərindən - 4,1 dəfə, Polşadan - 3,8 dəfə, Yaponiyadan - 3,7 dəfə, Böyük Britaniyadan - 3,5 dəfə, Kanadadan və İsraildən - 3,3 dəfə, Macarıstandan - 3,2 dəfə, ABŞ-dan və Fransadan - 3,1 dəfə, Almaniyadan və Niderlanddan - 3,0 dəfə, İtaliyadan - 2,9 dəfə, Malayziyadan və Türkmənistandan - 2,7 dəfə azalıb. Ümumilikdə, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 3,4 dəfə azalaraq 16,2 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 2,2 dəfə azalaraq 75,3 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 1,9 dəfə azalaraq 205,4 min nəfər olub.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 66,9 faizi dəmir yolu və avtomobil, 31,6 faizi hava, 1,5 faizi isə dəniz nəqliyyatından istifadə edib.

# Şəmkirdə texnika çatışmazlığı

***Mayın sonlarından ölkənin kənd təsərrüfatı sektorunda biçin mövsümü başlayıb. Fermerlər il ərzində çəkdiyi zəhmətin bəhrəsini görmək üçün hərəkətə keçiblər. Kənd Təsərrüfatı Nazirliyi də biçin mövsümü ilə əlaqədar iri fermer təsərrüfatları ilə sıx əlaqədə işləyir. Çatışmazlıqları aradan qaldırmaq üçün var qüvvəsi ilə çalışır. Bunu nazirliyin yaydığı məlumatlarda, eləcə də fermerlərin mediaya açıqlamalarında tez-tez görürük.***



Bütün bunlarla yanaşı, məhsulunu torpaq sahəsindən götürə bilməyənlər də var. Şəmkirin Ağlavaşlı kəndində yaşayan Mətləb Mustafayev deyir ki, hektar yarımlıq ərazidə taxıl əkib. Bu vaxta qədər məhsulu sahədən götürə bilmir. O, hafta.az-a müraciətində bunun səbəblərini dilə gətirir: “Elə yerlər var ki, biçilib. Bəzi yerlər isə qalıb. Texnika çatışmır. Çünki indi mövsümdür. Hamı yerini biçdirmək istəyir. Müasir texnikalar azdır. İri fermer təsərrüfat sahələrinə üz tuturlar. Kiçik təsərrüfatlar isə gözləməyə məcbur olur. Məhsul isə gözləmir.

Əkdiyimiz taxıl, buğda yerə gedir. Bir il ərzində çəkdiyimiz əmək zay olur. Sağ olsun, dövlət taxıl əkənlərə subsidiya verir. İndi də istəyimiz odur ki, texnika ilə təmin etsin, məhsulumuzu götürək. Başa düşürük ki, Şəmkir kənd təsərrüfatı rayonudur. Taxıl və buğda sahələri çoxdur. Aqrolizinqin hər kəsi vaxtında texnika ilə təmin etməyə gücü çatmaya bilər. Amma biz də kasıb insanlarıq, gözümüzü buna dikmişik”.

Fermerin sözlərinə görə, bir neçə dəfə sovet dövründən qalmış köhnə kombaynlarla buğda sahəsini biçdirmək istəyib, lakin alınmayıb: “Onların istismar müddəti başa çatıb. Yerin içinə girən kimi qırılırlar. Bir-iki ağız biçən kimi dayanırlar. Çünki lap “əldən düşmüş” kombaynlardır. Bir-iki dəfə cəhd etdik, biçə bilmədi. Sünbülü dibdən götürə bilmir. Əzir, qırır... Məhsul da zay olur. Bir-iki ağız biçib yerə tökür, biz də onu əllərimizlə çuvallara yığıb müxtəlif vasitələrə evə aparırıq. Bu il iki bunker məhsul gözləyirdik. Yaxşı taxılımız vardı. Amma zay oldu. Hələ də gec deyil. Nazirlikdən, aqrolizinqdən xahiş edirik ki, bizi texnika ilə təmin etsin. Tə mənim sahəm deyil. Çox yerlər biçilsə də, texnika çatışmazlığı səbəbindən biçilməyən yerlər də hələ qalıb”.

Mətləb Mustafayev onu da əlavə edir ki, bəzən günlərlə texnika dalınca yaxınlıqdakı kəndlərə gedirlər. Bütün bunlara baxmayaraq bir nəticə hasil olmur: “Bəzən həmin kombaynlar yerin azlığına görə gəlmirlər. İri təsərrüfat sahələrində işləməyi üstün tuturlar. Tələskənliyimizin səbəbi var. Artıq sünbüllər quruyub. Bir balaca külək əssə, yağış yağsa, məhsul yerə gedəcək. Zay olacaq”.

■ **Məsələ ilə bağlı Kənd Təsərrüfatı Nazirliyi ilə əlaqə saxladıq. Nazirlikdən hafta.az-a bildirdilər ki, texnika çatışmazlığı ilə bağlı problem yoxdur. Sadəcə növbəlilik prinsipi var.** Bütün arpa və buğda sahələrinin biçin prosesi nəzarətdədir. Eyni zamanda, nazirlik nümayəndələri Şəmkirin Ağlavaşlı kəndindəki fermerlərin problemi ilə bağlı araşdırmalara başlayıb, ən yaxın zamanda məsələnin həll ediləcəyini bildirdilər.

Azərbaycanda taxıl sahələrinin 35,9 faizində biçin başa çatıb. Bu barədə hafta.az-a Kənd Təsərrüfatı Nazirliyindən bildirilib. Verilən məlumata görə, iyunun 20-nə olan operativ məlumata görə, biçin başa çatmış 362716,6 ha sahədən 1126943 ton məhsul yığılıb: “Hazırda taxıl üzrə orta məhsuldarlıq 31,1 sentner, o cümlədən arpa üzrə 30,3, buğda üzrə 32,9 sentner təşkil edir.

Respublikada arpa sahələrinin 2/3 hissəsində biçin prosesi yekunlaşıb. Ölkə üzrə 369303,7 hektar arpa sahəsindən 258161,1 hektarı biçilib. Sahələrdən 783092,1 ton məhsul yığılıb”.

Məlumatda qeyd olunur ki, bu il ölkədə 640 min hektardan artıq sahədə buğda əkini aparılıb. İyunun 20-dək 104555 hektar buğda sahəsi biçilib, sahələrdən 343850,9 ton məhsul yığılıb.

✍ ***Tural***

# Xətaidə yaşayış binaları dezinfeksiya olunmur

**COVİD-19 pandemiyasına qarşı ölkə başçısının və eləcə də Nazirlər Kabinetinin hər bir tapşırıq və sərəncamına aidiyyəti qurumlar tərəfindən sözsüz əməl edilməlidir. İlk oncə yerlərdə vaxtlı-vaxtında dezinfeksiya işləri aparılmalıdır.**



Təəssüflər olsun ki, paytaxtın Xətai rayonu, Neapol küçəsində yerləşən 24, 26a və 28 saylı yaşayış binalarında, nədənsə, dezinfeksiya işləri aparılmır.

**Sakinlərdən Elman Bayramov bildirdi ki, 26 a saylı binada yaşayır. Onun sözlərinə görə, COVİD-19 pandemiyası dünyanı çənginə alıb.** Paytaxtda əhali arasında geniş yayılmağa başlayıb. Karantin rejimi tətbiq edilib, amma yaşadıqları binada nədənsə dezinfeksiya işləri aparılmır. Yaşadığımız binanın girəcəklərində, zirzəmisində və eləcə də sakinlərin sıx toplaşdığı ərazilərdə dezinfeksiya işləri aparılmayıb: “Karantin rejiminə qədər hər gün sakinlər çıxıb həyətdə oturur, uşaqlar isə oynayırdılar. Həyətdəki oturcaqları, söhbətgahları, uşaq oyuncaqlarını gəlib dezinfeksiya etmirlər. Aidiyyəti qurumlar mərkəzi küçələri dezinfeksiya edir. Hər gün bloklarla onlarca insan mərtəbələrə çıxıb-düşür, nədənsə gəlib girəcəkləri, binaların mərtəbələrini, pilləkənləri, liftləri dezinfeksiya etmirlər. Yeri gəlmişkən deyim ki, elə xəstəliyin yayılma riskinin də artmasının bir səbəbi yaşayış binalarında və zibil qutuları qoyulan ərazilərdə dezinfeksiya işlərinin aparılmamasıdır”.

**Xətai Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi şöbəsinin müdiri Ramiz Əliyev “Həftə içi”nə 26a saylı binanın Rayon MKTB-nin tabeliyində olmadığını bildirdi.** Birliyin sözçüsü vurğuladı ki, sözügedən bina (yenitikili) təzə tikilib. Binanın özünün komendantı var:

“Komendat tərəfindən həmin binanın lifti gündə 2-3 dəfə, girəcəklər və mərtəbələrində isə hər gün dezinfeksiya işləri aparılmalıdır. Bu haqda 26a saylı binanın komendantı Mahir müəllimə məlumat veriləcək”.

✍ ***Qələndər Xaçınçaylı***

# Gömrükdən qanunsuz keçirilən “iPhone”lar müsadirə edildi



**Dövlət Gömrük Komitəsinin Əməliyyat İstintaq Baş İdarəsinin Əməliyyat İdarəsinə Rusiya Fedserasiyasından ölkəmizə qaçaqmalçılıq yolu ilə xeyli sayda mobil telefonların gətiriləcəyi barədə əməliyyat məlumatı daxil olub.** Komitədən hafta.az-a verilən xəbərə görə, həmin məlumat əsasında Şimal Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinin əməkdaşları tərəfindən Rusiya Federasiyası istiqamətindən “Samur “ gömrük postunun idxal nəzarəti xəttəinə daxil olan Azərbaycan Respublikası vətəndaşı Cavadov Əlyar Sərdar oğlunun idarə etdiyi “SCANİA R420” markalı, 99 UR142/42ZA485 dövlət qeydiyyat nişanlı yük nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib.

Yoxlama zamanı avtomobilin yanacaq çəninin içərisindən gömrük nəzarətindən gizlədilən, polietilen paketlərə sarınmış şəkildə 202 ədəd müxtəlif versiyalı “iPhone 11” markalı və 15 ədəd “Samsung S20” markalı, ümumilikdə 217 ədəd mobil telefonlar aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

✍ ***Hafta.az***

# Bakıda sistem əhəmiyyətli yeni yarımstansiya tikilib

**Bakı şəhəri və ətraf qəsəbələrin sosial, iqtisadi, sənaye və digər sahələrin sürətli inkişafını, əhalinin, o cümlədən son illərdə tikilən çoxmənzilli binaların elektrik enerjisinə artan tələbatını qarşılamaq üçün “Azərenerji” ASC sistem əhəmiyyətli 220/110/10 kilovoltluq tam yeni yarımstansiya tikib.**



ASC-dən hafta.az-a verilən məlumata görə, Bakı şəhərinin şimal hissəsindəki 110 kilovoltluq yarımstansiyaları qidalandırmaqla yanaşı paytaxtdakı sistem əhəmiyyətli mövcud 220 kilovoltluq yarımstansiyaların yükünü azaltmağa, bununla da qəzaların qarşısını almağa, itkiləri azaltmağa, dayanıqlığı və etibarlığı artırmağa xidmət edəcək “Böyükşor” adlanan yeni 220 kilovoltluq yarımstansiya istehlakçıların normalara uyğun keyfiyyətli elektrik enerji ilə təchizatında müstəsna rol oynayacaq. Atmosfer şəraitinin təsirinə məruz qalmamaq, ətraf mühiti qorumaq və daha az yer tutmaq üçün qapalı şəraitdə, tam müasir üslubda tikilən “Böyükşor” yarımstansiyasında 3 ədəd 250 meqavolt amper gücündə transformator, 220 və 110 kV-luq qapalı paylayıcı qurğular tikilib. Məlumata əsasən, yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sisteminə qoşulacaq.

“Böyükşor” yarımstansiyasının sistemə qoşulması ilə Abşeron enerji qovşağını qidalandıran 220 kilovoltluq hava xətlərinin yüklənməsinin, həmçinin bu xətlərdə olan itkilərin azalmasına nail olunacaq. Onu da qeyd edək ki, “Böyükşor” yarımstansiyası qurularkən perspektiv sosial-iqtisadi inkişaf, əhalinin artan tempi nəzərə alınıb.

Qeyd edək ki, son iki ilə qədər Bakı və Abşeron yarımadasında cəmi beş ədəd 220 kilovoltluq yarımstansiya fəaliyyət göstərirdi ki, onların da dördü istismar müddətini başa vurmuşdu. Son iki ildə isə Böyükşor və “Şimal” Elektrik Stansiyasının ərazisində qapalı tipli iki yarımstansiya tikilərək 220 kilovoltluq yarımstansiyaların sayı yeddiyə çatdırılıb. Eyni zamanda istismar müddətini bitirən sistem əhəmiyyətli dörd ədəd 220 kilovoltluq yarımstansiyanın ikisində yenidənqurma işi tamamlanıb, digər iki yarımstansiyada isə yaxın aylarda tamamlanacaq.

✍ ***Hafta.az***

# Pandemiya dövründə xaricə gedən azərbaycanlıların sayı kəskin azalıb



**2019-cu ilin yanvar-may ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 2,2 dəfə azalaraq 958,8 min nəfər olub.**

Ölkə vətəndaşlarının 33,5 faizi İrana, 29,7 faizi Gürcüstana, 20,4 faizi Rusiya Federasiyasına, 9,6 faizi Türkiyəyə, 6,8 faizi isə digər ölkələrə səfər edib. Gedənlərin 69,3 faizini kişilər, 30,7 faizini qadınlar təşkil edib. Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 2,5 dəfə, Türkiyəyə gedənlərin sayı 2,2 dəfə, Gürcüstana gedənlərin sayı 2,0 dəfə, Rusiya Federasiyasına gedənlərin sayı isə 1,9 dəfə azalıb. 2020-ci ilin yanvar-may aylarında xarici ölkələrə səfər etmiş Azərbaycan Respublikası vətəndaşlarının 82,0 faizi dəmir yolu və avtomobil, 16,4 faizi hava, 1,6 faizi isə dəniz nəqliyyatından istifadə edib.

# Ölkəyə 10 kq-dan çox narkotik vasitənin gətirilərək realizə olunmasının qarşısı alınıb

**Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat tədbiri nəticəsində külli miqdarda narkotik vasitələrin və psixotrop maddələrin ölkə ərazisinə gətirilərək realizə olunmasının qarşısı alınıb.**



Daxili İşlər Nazirliyindən hafta.az-a verilən məlumata görə, Baş İdarə əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Sabunçu rayonu Maştağa qəsəbə sakinləri, Elşad Nəbiyev və Müşfiq Xalıqov saxlanılıblar. Şəxsi axtarış aparılan zaman M.Xalıqovdan 1 kiloqram 25 qram heroin, 500,171 qram psixotrop maddə metamfetamin, E.Nəbiyevdən isə 50,375 qram heroin aşkar olunaraq götürülüb. Əməliyyat ədbirlərinin davamı olaraq Baş İdarənin əməkdaşları tərəfindən E. Nəbiyevin Maştağa qsəəbəsində yerləşən evindən 1 kiloqram 80 qram metamfetamin, 5 kiloqram 10 qram qurudulmuş marixuana və 3 kiloqram 75 qram heroin aşkar olunub. Beləliklə sonuncu əməliyyat nəticəsində Baş İdarənin əməkdaşları tərəfindən 10 kiloqram 740 qram narkotik vasitə və psixotrop maddənin qanunsuz dövriyyəyə buraxılmasının qarşısı alınıb.

Araşdırma zamanı müəyyən olunub ki, E.Nəbiyev və M.Xalıqov hələlik adı istintaqa məlum olmayan “Şəhram” adlı İran vətəndaşının tapşırığı ilə qanunsuz yollarla Azərbaycan ərazisinə keçirilən külli miqdarda narkotik vasitə və psixotrop maddəni Bakı şəhərində qəbul ediblər və yaşadıqları evdə gizlədiblər. Onlar narkotik vasitələri İran vətəndaşının deyəcəyi adamlara satandan sonra pulun bir hissəsini geri göndərməli imiş.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, adları çəkilən şəxslər tutularaq istintaqa təqdim olunublar. Cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Aİ-nın dəstəyi ilə Azərbaycan su ehtiyatlarına dair informasiyaya daha rahat çıxış əldə edəcək

**İyunun 22-dən başlayaraq Azərbaycandan və Avropa Ətraf mühit Agentliyindən olan su ekspertəri “EkoPortal”ın idarə edilməsi üzrə onlayn potensialın formalaşdırılması təlimi keçirəcəklər.**



Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyindən hafta.az-a bildirilib ki, ətraf mühitə dair informasiyanın, o cümlədən su - planetimizdəki bütün həyat, ekosistemlər, cəmiyyət və iqtisadiyyat üçün vacib əhəmiyyəti olan resurs haqqında informasiyanın paylaşılması təlimin əsas diqqət mərkəzində dayanacaq. Bu potensialın formalaşdırılması təlimi Aİ-nin yaşıl inkişafı təşviq etmək və Şərq Tərəfdaşlığı məkanında rəqəmsallaşma üzrə məqsədlərinə uyğundur. Azərbaycan regionda su çatışmazlığından əziyyət çəkən ölkələrdən biri olduğu üçün sudan səmərəli istifadə olunması və şirin su ekosistemlərinin mühafizəsi olduqca vacibdir. Azərbaycanın “EkoPortalı” ölkədə biliklərə əsaslanan qərar qəbul edilməsi üçün əsas yaratmaq məqsədilə su ehtiyatlarının idarə olunmasına cavabdeh qurumlar arasında məlumat və informasiyanın paylaşılmasına dəstək verəcək. Aİ-nin dəstəyi ilə Azərbaycanda su keyfiyyətinə dair məlumatlar Avropa Su İnformasiyası Sisteminin su keyfiyyəti məlumatları lüğətinin tələblərinə uyğunlaşdırılıb. Hazırda həmin məlumatlar Avropa məlumat topluları ilə uyğunluq təşkil edir. Eynilə də, su keyfiyyəti məlumatlarına əsasən işlənib hazırlanmış və “EkoPortal”da dərc edilmiş göstəricilər Avropa Ətraf mühit Agentliyinin indikator şablon formatını rəhbər tutur. Bu, Azərbaycanda su ehtiyatlarının vəziyyətini qonşu ölkələrlə, eləcə də Aİ-nin istənilən üzv dövləti ilə müqayisə etməyə imkan yaradacaq. Regional əsasda müqayisə oluna bilən göstəricilərə malik olmaq milli və regional səviyyədə biliklərə əsaslanan siyasi dialoqu dəstəkləyəcək. İşlənib hazırlanmış göstəricilər toplusu, həmçinin geniş ictimaiyyətə gündəlik həyatlarında və həyat səviyyələri və rifahlarının əsasını təşkil edən iqtisadi fəaliyyətlərində etibar edəcəkləri su ehtiyatlarının mövcudluğu və onun keyfiyyəti barəsində informasiya əldə etməsinə şərait yaradacaq.

“EkoPortal” bütün göstəricilərin mövcud olduğu bir platformadır. Həmçinin bir çox digər məlumatlar sudan istifadə edənlər, tədqiqat ictimaiyyəti, regional və qlobal qiymətləndirmələr üzrə milli məlumatlardan ciddi dərəcədə asılı olan beynəlxalq təşkilatlar kimi daha geniş maraq qruplarının mənafeyinə xidmət edəcək.

Sistemin funksionallığı və “EkoPortal”ın dizaynı Avropa Su İnformasiyası Sistemindən ilhamlanaraq tərtib edilib. Avropa İttifaqının bütün üzv dövlətləri özlərinin su ilə əlaqədar məlumatları barədə bu sistemə hesabat verir və informasiyanı paylaşırlar. “EkoPortal” məlumat toplularını, göstəriciləri, dinamik xəritələr və hesabatlar təqdim edir. Bu portal Paylaşılan Ekoloji İnformasiya Sisteminin prinsiplərinə və təcrübələrinə uyğun şəkildə su üzrə milli qurumlar arasında məlumat və informasiya mübadiləsi və onun paylaşılmasına imkan verir. İndi vətəndaşlar, ekspertlər, sudan istifadə edənlər və elmi ictimaiyyət müxtəlif məlumat bazalarına çıxış əldə edə və Azərbaycanın su keyfiyyəti məlumatlarını Avropa İttifaqının üzv dövlətlərinin məlumatları ilə müqayisə edə bilər.

Avropa Qonşuluq və Tərəfdaşlıq Alətinin Paylaşılan Ekoloji İnformasiya Sistemi II Şərq layihəsi Aİ tərəfindən maliyyələşdirilir. Layihə müxtəlif ekoloji domenlərdə Paylaşılan Ekoloji İnformasiya Sisteminin psinsiplərini və təcrübələrini həyata keçirir. Bu layihə 2010-2015-ci illərdə 6 Şərq Tərəfdaşlığı ölkəsində (Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukrayna) həyata keçirilmiş öncəki əməkdaşlıq fəaliyyətlərinə əsaslanır. O, Avropa İttifaqının 6 Şərq Tərəfdaşlığı ölkəsi ilə münasibətləri dərinləşdirmək və ekoloji idarəetməni gücləndirməklə ətraf mühitin mühafizəsinin təşviqinə dəstək məqsədi daşıyır. Layihə biomüxtəliflik, su, torpaq, tullantılar, hava, kommunikasiya və ekoloji qiymətləndirmələr sahəsində potensialı formalaşdırır. Avropa Ətraf mühit Agentliyi Şərq Tərəfdaşlığı ölkələrində milli ekoloji və statistika qurumlarının institusional potensialının inkişaf etdirilməsi məqsədilə Avropa İttifaqının ən son və ən yaxşı təcrübə və metodologiyalarını təqdim edir.

✍ ***Vüsal***

# Milli professional vokal məktəbinin banisi

***Ecazkar səsi ilə hamını heyran qoyan, şaqraq zəngulələri ilə bülbülləri susduran və buna görə də xalq tərəfindən Bülbül adlandırılan sənətkarın əsl adı Murtuza Məşədi Rza oğlu Məmmədov olsa da, Azərbaycanda və onun hüdudlarından çox-çox uzaqlarda elə "Bülbül" kimi tanınıb. Azərbaycan vokal məktəbinin banisi, lirik-dramatik tenor səsə malik opera müğənnisi, görkəmli xanəndə, Azərbaycan və SSRİ Xalq artisti Bülbülün anadan olmasının 123 ili tamam olur.***



O, Şuşada anadan olub və bu şəhərin ab-havası, sözlü-nəğməli, muğamla nəfəs alan mühiti onun sənətkarlığı üçün bəhrəli zəmin olub. İlk təhsilini də burada mədrəsədə alıb, bir çox ustad xanəndələrin ilk musiqi biliyinə yiyələndiyi bir ocaqda - Molla İbrahimin məktəbində muğam sənətinin qanun-qaydalarını mənimsəyib. Xüsusilə görkəmli xanəndə Cabbar Qaryağdıoğlundan o, sənətin çox sirlərini öyrənib. Bülbül ilk səhnə fəaliyyətinə 1916-cı ildə Məşədi Cəmil Əmirovun Gəncədə səhnəyə qoyduğu "Seyfəlmülk" operası ilə başlayıb.

Bülbül 1920-ci ildən Azərbaycan Opera və Balet Teatrının (o zamanlar Birləşmiş Dövlət Teatrı opera truppası idi) solisti olub. Fəaliyyətinin ilk illərində Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm", Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operalarında İbn Səlam, Kərəm, Qərib rollarını oynayıb. O, 1927-ci ildə Bakı Konservatoriyasını bitirib. Yüksək səs tembrinə, məlahətli ifa tərzinə malik müğənni təhsilini davam etdirmək üçün dövlət xətti ilə İtaliyanın Milan şəhərinə göndərilib. 1931-ci ildə Milan Konservatoriyasında Delliponti və R.Qraninin siniflərini bitirərək Vətənə dönüb və Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlayıb.

Klassik vokal sənətinə ustalıqla yiyələnmiş Bülbül milli köklərdən ayrılmayaraq, xalq musiqisi üçün səciyyəvi xüsusiyyətləri, ənənələri pozmayaraq, yeni üslub yaratmağa can atırdı. O, italyan və rus vokal məktəblərinin ən yaxşı cəhətlərini əxz edir və onları milli ifaçılıq üslubu ilə əlaqələndirirdi. Qərb və Şərq oxuma üsulları arasında qovuşma nöqtələri tapan müğənni xalq sənətkarlığı ilə professional vokal ifaçılığının vəhdətinə nail olurdu. Bununla da o, Azərbaycanda ilk olaraq, professional vokal ifaçılığının bünövrəsini qoyub. O, bunu həm nəzəri cəhətdən işləyib, həm də praktiki cəhətdən həyata keçirib. Belə ki, o, dəfələrlə bu məsələyə həsr olunmuş mühazirələrlə çıxış edib, konsertlərində isə həm ariya və romansları, həm də xalq mahnılarını və muğamları eyni şövqlə oxuyub. Azərbaycan musiqisində yeni səhifə açan Bülbülün yaradıcılığı vokal sənətinin inkişafında mühüm mərhələ olub.

Bülbül sənətinin gücü onun geniş diapazonlu, məlahətli səsində idi. Səlis bədii diksiyaya, böyük səhnə mədəniyyətinə malik olması onun ən ümdə xüsusiyyətlərindən idi. Daim axtarışda olan, yeni zirvələrə can atan Bülbülün repertuarı çox zəngin idi. O, xarici ölkə bəstəkarlarının opera ariyalarını və romansları, Azərbaycan bəstəkarlarının vokal əsərlərini, muğamları, xalq mahnı və təsniflərini özünəməxsus üslubda, aydın tələffüzlə ifa edirdi. Klassik əsərləri bir neçə dildə ifa edən Bülbül ən çox Azərbaycan dilinə böyük fikir verirdi və həmişə deyirdi ki, "öz dilində elə oxumaq lazımdır ki, bu dili başa düşməyənlər də ondan zövq ala bilsinlər". Bülbülün yaradıcılığını yüksək qiymətləndirən dahi bəstəkarımız Üzeyir Hacıbəyli qeyd edirdi ki, "Bülbül kimi musiqi təhsili alan, həm şərq üslubunda, həm də operalarda oxumağı bacaran ifaçılar musiqi sənətimiz üçün qiymətli kadrlardır".

Təsadüfi deyildir ki, Bülbül Üzeyir Hacıbəylinin şah əsərində - "Koroğlu" operasında baş rolun ilk, həm də ən yaxşı ifaçısı olub. Koroğlu onun yaratdığı obrazların zirvəsidir. Bu operanı Üzeyir Hacıbəyli məhz Bülbül üçün yazıb. İndi də "Koroğlu"dan söhbət düşəndə gözümüz önündə Bülbül canlanır. Burada aşıq sənəti xüsusiyyətləri ilə professional vokal ifaçılığını qovuşduran Bülbül əfsanəvi xalq qəhrəmanının monumental obrazını yarada bilib. Bununla yanaşı, Bülbül həm də digər Azərbaycan bəstəkarlarının operalarında yaddaqalan obrazlar yaradıb.

Azərbaycan müğənnilərinin böyük bir nəslinin yetişməsində Bülbülün xidmətləri əvəzsizdir. O, görkəmli pedaqoq olub, öz təcrübəsini, sənətin sirlərini istedadlı gənclərə öyrədib. Bülbülün sinfini bitirmiş bir sıra vokalçılar hazırda teatr və kamera ifaçılığı sahəsində layiqli yer tutublar.

Bülbül vokal sənətinin əsaslarını və öz pedaqoji prinsiplərini elmi-nəzəri və metodik cəhətdən də işləyib.

Milli professional vokal məktəbinin yaradıcısı Bülbülün ənənələri bütün Şərq vokal sənətinə böyük təsir göstərib, müasir ifaçılarımız üçün gözəl örnəyə çevrilərək bu gün də yaşamaqdadır.

Bülbülün musiqi tariximizdəki xidmətlərindən danışarkən, onun folklorşünaslıq sahəsindəki fəaliyyətini də qeyd etmək lazımdır. O, xalqın hafizəsində qorunan musiqi folklorumuzu toplamaq, onu bir zərgər səliqəsi ilə cilalamaq və fövqəladə bir ifa ilə xalqa qaytarmaq istəyi ilə yaşayırdı. İndi əzbər bildiyimiz bir çox xalq mahnılarına Bülbül yeni həyat verib. Bülbülün rəhbərliyi ilə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Elmi-Tədqiqat Musiqi Kabinetinin təşkili və burada Azərbaycan xalq musiqi incilərinin bəstəkarlarımız tərəfindən məşhur xalq sənətkarlarının ifasından nota köçürülməsi musiqi tariximizdə mühüm hadisə kimi qiymətləndirilməlidir. Bu kabinet 1932-ci ildən 1943-cü ilədək fəaliyyət göstərib, xalq musiqi nümunələrinin toplanması, sistemləşdirilməsi, nota köçürülüb çap olunması ilə məşğul olub.

Bülbül o dövrdə konservatoriyada təhsil alan tələbələri, sonradan musiqimizi dünyaya tanıtmış bəstəkarları - Niyazi, Qara Qarayev, Cövdət Hacıyev, Fikrət Əmirov, Səid Rüstəmov, Tofiq Quliyev və bir çox başqalarını musiqi kabinetində fəaliyyətə cəlb edib ki, bu da xalq yaradıcılığına dərindən nüfuz edən bəstəkar və musiqişünasların yetişməsində, eləcə də Azərbaycan musiqi irsinin öyrənilməsində və yayılmasında böyük rol oynayıb.

Bülbül 1938-ci ildə SSRİ Xalq artisti adını alıb, 1940-cı ildə Azərbaycan Dövlət Konservatoriyasının professoru seçilib, 1950-ci ildən SSRİ Dövlət mükafatı laureatı adına layiq görülüb. Eyni zamanda, I və V çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub, 2 dəfə Lenin, 2 dəfə "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri, İtaliyanın "Haribaldi" ordeni və medallarla təltif olunub.

Bülbül 1961-ci il sentyabrın 26-da Bakıda vəfat edib və birinci Fəxri xiyabanda dəfn olunub. Hazırda Bakı şəhərində mərkəzi küçələrdən biri Bülbülün adını daşıyır. Onun adına Bakı Musiqi Akademiyası nəzdində musiqi məktəbi fəaliyyət göstərir. Bülbülün vətəni olan Şuşada xanəndənin bürünc büstü qoyulub. 1992-ci ilin may ayında Şuşanın ermənilər tərəfindən işğalından sonra bu büst (şairə Natəvanın və bəstəkar Üzeyir Hacıbəylinin büstləri ilə birlikdə) düşmən tərəfindən Gürcüstana metal kimi satılıb, sonradan Azərbaycan hökuməti tərəfindən geri alınaraq Bakıya gətirilib.

1976-cı ildə Şuşada, 1982-ci ildə Bakıda Bülbülün memorial muzeyi açılıb. Hazırda Şuşa erməni işğalı altında olduğundan buradakı muzeyin taleyi məlum deyil.

Ölkəmiz ikinci dəfə müstəqillik əldə etdikdən sonra bu böyük sənətkarın yaradıcılığına diqqət daha da artırılıb. Belə ki, zəngin yaradıcılıq yolu keçmiş və çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın musiqi mədəniyyəti tarixində silinməz izlər qoymuş böyük sənətkar Bülbülün xatirəsi əziz tutulub, yubileyləri dövlət səviyyəsində qeyd edilib. Ulu öndər Heydər Əliyev tərəfindən 1997-ci il avqustun 20-də "Bülbülün 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalanıb. Bülbülün 100 illik yubileyi həm xalqımız, həm də Bülbül sənətinə pərəstiş edən bir çox xalqlar tərəfindən geniş qeyd olunub. Həmin ildən başlayaraq, mütəmadi olaraq, vokalçıların Bülbül adına beynəlxalq müsabiqəsi keçirilir, bu müsabiqəyə dünyanın bir çox ölkəsindən gəlmiş vokalçılar qatılırlar.

Prezident İlham Əliyevin "Bülbülün 110 illik yubileyinin keçirilməsi haqqında" 16 aprel 2007-ci il tarixli Sərəncamına əsasən müğənninin yubileyi dövlət səviyyəsində qeyd edilib. 2012-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə Bakıda, Bülbül prospektində Bülbülün xatirəsinə ucaldılmış abidənin açılışı olub.

Bülbülün anadan olmasının 120 illiyi münasibətilə ölkə başçısı 2017-ci il mayın 11-də "Bülbülün 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən hazırlanan tədbirlər planına uyğun olaraq milli musiqi mədəniyyətinin inkişafı, tədqiqi və təbliği işinə misilsiz töhfələr vermiş Xalq artisti Bülbülün yubileyi il ərzində müxtəlif tədbirlərlə geniş qeyd edilib. Azərbaycan mədəniyyətində özünəməxsus yeri olan Bülbül özündən sonra zəngin bir irs qoyub gedib və mənsub olduğu xalqın qəlbində əbədiyaşarlıq qazanıb.

MƏDƏNİYYƏT

# "General" işıq üzü gördü

**Şair Şirin Məmmədlinin qələmə aldığı yeni kitabı bədii ədəbiyyata, şeirə-sənətə möhkəm bağlı olan bir insan - general-leytenant Arif Nəzər oğlu Heydərovun keçdiyi ömür yolu haqqında "General" poeması (Oda əsəri) işıq üzü gördü. Kitabın redaktoru isə tanınmış şair-publisist yazıçı Qələndər Xaçınçaylıdır.**




Şair bu əsəri yazmaqla çox sevdiyi, özünün həyatında da dərin izlər buraxmış həmin görkəmli şəxsiyyətə sözlə bir abidə ucaltmağa səy göstərmişdir. Filologiya elmləri doktoru Vaqif Yusifli kitaba "Ön söz" yazıb. "Ön söz"də bildirilir ki, poema bir-birinə sıx bağlı iyirmi doqquz fəsildən ibarətdir və bu fəsillərin hər birində generalın obrazının mükəmməl cizgiləri müşahidə olunur. Poemanın birinci fəslində müəllif öz nəslindən, babalarından söz açır və məlum olur ki, müəllif generalla eyni nəsildəndir. Onların ulu babaları Səfəralı kişi olub ("Baş əyməzdi o yağıya, nadana, Qol qaldırıb, alınınca çalardı".) Bu nəslin iki tanınan övladı olub: biri Məhəmmədəli, o biri Heydər. Bu iki qardaş həmin nəslin şərəf və ləyaqətini həmişə uca tutmuş, Mehdilərin adını yaddaşlara yazmışlar. Müəllif Gürcülü kəndini də böyük məhəbbətlə təsvir edir:

**Gürcülü adlanan doğma kəndimin,**
**Gözəl mənzərəsi, oylağı vardı.**
**Gülləri sayrışan çöl, çəmənimin,**
**Sərin bulaqları, yaylağı vardı.**

Bu kənd təkcə təbii gözəllikləri ilə deyil, həm də insanları, ozanları, igid-igid oğulları, sinəsi nağıllı, bayatılı nənələri, müdrik ağsaqqalları ilə şöhrət qazanmışdır.

Müəllif Arifin uşaqlıq və gənclik illərini də rəğbətlə təsvir edir. Yaşa dolduqca Arifin öz doğma Vətəninə, dilinə, mənəvi dünyasına bağlılığı həmişə diqqəti cəlb etmişdir. Atasının iş yeri ilə əlaqədar Ağdaşda doğulsa da, Arif "Həmişə deyərdi Qubadlıdanam. Mən doğma atamın yurdunu danmaram". Arif Heydərov çox zəkalı, fonemal bir insan idi. Elə orta məktəbdə oxuyanda o, hamıdan seçilirdi, sonralar yaşa dolduqca rus, ingilis, fars, alman dillərini də öyrənir. Orta məktəbdə oxuyarkən Arifin ən sevdiyi fənn tarix olur. O yaxşı bilirdi ki, öz xalqının tarixini, keçmişini bilmədən əsl vətənpərvər olmaq mümkün deyil. Atasının və başqalarının Qaçaq Nəbi haqqında söylədiklərini də unutmurdu. Beləliklə, orta məktəbi bitirənədək Arif Heydərov mükəmməl bir gənc kimi yetişmiş, formalaşmışdı. Arif Heydərovun lap gənc illərindən bir insan kimi sadə insanlarla oturub-durması, onlarla dostluq etməsi, xüsusilə qardaşı Qaçaya olan sevgisi poemada çox incəliklə çatdırılır: "Sadə adamlardan dostlar seçərdi, Onlar uzaqgörən insanlarıydı".Onun yurda bağlılığını, şeirə-sənətə böyük həvəsini, dünya ədəbiyyatını sevə-sevə mütaliə etməsi də unudulmur:

**Böyüyə, uşağa, hər bir insana,**
**Qayğı göstərirdi öz əməlində.**
**İçindən alışıb o yana-yana,**
**Bir ocaq olmuşdu doğma elində.**

Bir sözlə, müəllif Arif Heydərovun xasiyyət və xarakterini üzə çıxarır. Onun ali məktəbdə bir tarixçi kimi yetişməsini, gənc yaşlarından idmanı sevməsini, xüsusilə nəzərə çatdırır.

"Çahargahsız", "Segahsız" günü olmayan, çox güclü musiqi duyumu ilə seçilən Arif Heydərov öz xalqının mənəvi aləminə də yaxşı bələd idi. Amma o, ilk növbədə, doğulduğu torpağın pərvanəsi idi. Qaçaq Nəbi onun gənclik illərinin sevimli qəhrəmanı idi. Heç şübhəsiz, Arif Heydərovun mətin bir insan kimi yetişməsində Nəbi haqqında deyilən fikirlərin də əhəmiyyəti az olmamışdır:

**Babası Heydərin söhbətlərindən**
**Bilirdi, görmüşdü Heydər Nəbini.**
**Arifin dağlarda xoş gəzməyindən**
**Daşlar, qayalar da gəzər Nəbini.**

Beləliklə, Arif Heydərovu təbiət özü, zəmanə özü yetirir. Elə bir insan ki, onlar təkcə doğulduqları ata-baba yurdu üçün deyil, Vətən - Azərbaycan üçün yaranırlar. Arif Heydərovun həyatının bir hissəsi xarici ölkələrdə -diplomatiya fəaliyyətində keçmişdir, amma o, harada olursa-olsun bircə an belə öz Vətənindən ayrılmayıb.

Akademik, millət vəkili, "Ata Türk" Mərkəzinin rəhbəri Nizami Cəfərov, millət vəkili, tanınmış yazıçı Aqil Abbas, Qubadlı RİH-in başçısı Malik İsaqov, BDU-nun kafedra müdiri , professor, əməkdar müəllim Abbas Abbasov və filologiya elmləri doktoru Əliağa Cəfərov kitaba rəy yazmışlar.

*✍ Qələndər Xaçınçaylı*

İDMAN

# "Fənərbaxça" "Qalatasaray"ın istədiyi futbolçu ilə anlaşıb




**Türkiyənin "Fənərbaxça" klubu növbəti transferini gerçəkləşdirib. İstanbul klubu "Sivasspor"un futbolçusu Mert Hakan Yandaşla anlaşıb. "Fənərbaxça" 26 yaşlı yarımmüdafiəçi ilə 5 illik müqavilə imzalayıb. O, 2025-ci ilin yayına qədər "sarı-lacivərdilər"in formasını geyinəcək.**

Müqaviləsi mövsümün sonunda başa çatan futbolçu yeni klubuna azad agent kimi keçəcək. Atı 6 aydır "Qalatasaray"la yanaşı hallanan Yandaş ilkin müqavilə imzalasa da, İstanbulun digər klubuna keçib. Buna səbəb "sarı-qırmızılar"ın aprelin 30-dək yerinə yetirilməli olan şərtləri icra etməməsidir. Qeyd edək ki, Yandaş cari mövsümün 31 oyununda 10 qol vurub.

# "Qarabağ" klubu Emil Balayevi geri qaytarır

**Vaqner də Silva ilə yolları ayıran Ağdamın "Qarabağ" futbol klubu onun yerini kiminlə dolduracağını müəyyənləşdirib.**

Qurban Qurbanov keçmiş qapıçısını geri qaytarmaq fikrinə düşüb. Bu, "Zirə" ilə 3 aylıq sözləşməsi artıq başa çatan Emil Balayevdir. Hazırda tərəflər arasında danışıqlar demək olar yekunlaşıb. Millimizin üzvü yenidən Ağdam klubuna dönməyə razılıq verib. Ancaq E.Balayevə bir neçə xarici ölkədən də dəvət var. Gənc qapıçı legioner həyatı yaşamaq istəyir. Əgər bu variantlar baş tutmasa o, Azərbaycanda ancaq "Qarabağ"da oynayacaq. Qeyd edək ki, futbolçu 2016-cı ildə "Qarabağ"ın şərəfini qoruyub.



# Serxio Ramos La Liqada növbəti rekorduna imza atıb

**"Real Madrid" klubunun müdafiəçisi Serxio Ramos ötən gün komandasının "Real Sosyedad" ilə qarşılaşmasında (2:1) vurduğu golla karyerasında növbəti rekordunu rəsmiləşdirib.** Futbolçu İspaniya çempionatlarında 68-ci dəfə fərqlənməklə La Liqa tarixində ən məhsuldar müdafiəçi olub. O, bununla da "Barselona"nın sabiq müdafiəçisi Ronald Kumanı qabaqlayıb. Xatırladaq ki, "Real Madrid" səfərdə qazanılan qələbə ilə 65 xalla turnir cədvəlində liderliyə yüksəlib. Eyni xala malik "Barselona" ikinci pillədə qərarlaşıb.

ELAN

**Bərdə rayon Türkmən kənd sakini Məmmədov Ədalət Əli oğlunun adına verilmiş AN:094245, 61015028200027 nömrəli torpaq sahəsinin planı və ölçüsü itirildiyi üçün etibarsız sayılır.**

**Bərdə rayon Otuzikilər kənd sakini Əliyev Həbib Bəhlul oğlunun adına verilmiş JN-542 A kod 61018018 nömrəli Şəhadətnamə itirildiyi üçün etibarsız sayılır.**

# Elçilikdən sonra 9 nəfər koronovirusa yoluxub

**Türkiyədə Manisadan bir ailə Kütahyadan digər ailəyə elçiliyə gedib. Elçilikdən sonra 9 nəfər yeni növ koronavirusa yoluxub. İu barədə Kütahyanın Tavşanlı kaymakamı məlumat yayıb.**

Məmur bildirib ki, Tavşanlının Tepecik qəsəbəsində elçilik mərasimindən sonra qızları istənilən ailənin bir neçə üzvündə COVID-19 əlamətləri aşkarlanıb. Rayon Səhiyyə Müdürlüyünün apardığı "filyasyon" (COVID-19 aşkarlanan şəxslə ünsiyyətdə olan şəxslərdə müayinə aparılması) əməliyyatı nəticəsində 6 yaşayış binasında yaşayan və qohumluq əlaqələri olan 9 nəfərdə koronavirus müəyyən edilib.

Binalar karantinə alınıb, Vəfa Dəstək Qrupu və rayon Jandarma qurumu, binanı nəzarətə götürüb.

# "Bavariya" Bundesliqada yeni rekorda imza atıb

**Münxenin "Bavariya" futbol klubu Almaniya Bundesliqasının 33-cü turunda "Frayburq"u məğlub etməklə (3:1) rekorda imza atıb.** Münxen təmsilçisi Bundesliqada ardıcıl 15 oyundur, qələbə qazanır. Bu, ölkə çempionatı üçün rekord göstəricidir. Qeyd edək ki, "Bavariya" Bundesliqada ötən tur çempionluğunu rəsmiləşdirib.



# Gənc bloger qəzada öldü



**Rusiyalı bloger, 18 yaşlı "İnstaqram" fenomeni Nastya Tropiçel həyatını itirib. İu barədə elə onun "İnstaqram" səhifəsində məlumat yayılıb.**

Gənc blogerin Balidə avtomobil qəzasında öldüyünü qeyd ediblər: "Təəssüf ki, artıq Nastya bizimlə deyil. Mən buna inana bilmirəm. Ana", - deyə bildirilib.

# Məşhur aparıcı ilə eks-xanımı barədə qərar verildi

**Türkiyənin FOX TV kanalının məşhur aparıcısı İsmayıl Küçükkaya və ekshəyat yoldaşı Eda Dəmirci haqqında məhkəmə qərarı çıxarılıb.** Hafta.az qafqazinfo-ya istinadən xəbər verir ki, qərara əsasən hər iki tərəf bir-birindən 2 ay müddətinə uzaq qalacaq.

Qeyd edək ki, E.Demirci keçmiş həyat yoldaşının ona psixoloji və fiziki şiddət göstərdiyini açıqlamışdı. Məşhur aparıcı isə açıqlamasında iddiaları qəbul etməyib. O, əgər eks-xanımı şiddətlə bağlı iddialarını sübut edərsə, hər cür cəzaya razı olduğunu vurğulayıb.